ZAKİR ŞƏHRİYAZ

SÖZ GƏLSƏ TUTARDIM
LƏLƏ DAĞLARI

Bakı – 2016

Çapa hazırlayanı:
Tacir Səmimi
filologiya üzrə fəlsəfə doktoru

Redaktor:
Həsən Mirzəyev
filologiya elmləri doktoru, professor

Rəyçi:
Mahmud Allahmanlı
filologiya elmləri doktoru, professor

Zakir Şəhriyaz,
Söz gəlsə tutardım lələ dağları.
Bakı, "SkyG", 2016. – 224 səh.

ISBN 978-9952-440-22-04

© "Zakir Şəhriyaz", 2016

USTADNAMƏLƏR



UCUZLAŞDIRAR

Dili ötkün olan, ağlıkəm olan,
Sözün qiymətini ucuzlaşdırar.
Danışan adamın sözünü kəsən,
Özü hörmətini ucuzlaşdırar.

Diqqətlə qulaq as mənə, ay nadan,
Doğulanda kor olmusan anadan.
Fiqura göstərib, bədən oynadan,
Qadın ismətini ucuzlaşdırar.

Utanıb eləmə, çəkilmə geri,
Söz gəlibsə denən, yeridir, yeri.
Şəhriyaz ürəyi paslının biri,
Aqil hikmətini ucuzlaşdırar.

HƏRDƏN

Ağlı kamil, yaxşı dinər, danışar,
Düşməni oddadıb, çatdadar hərdən.
Paxılı döndərib dana-buzova,
Aparıb çöllərdə otdadar hərdən.

Yaltaqlanıb gündə başın əyənin,
Onun-bunun tikəsini yeyənin.
Lovğalanıb mənəm-mənəm deyənin,
Dizdərinə döyüb qatdadar hərdən.

Şəhriyaz olubdur sözün köləsi,
Nurdan düşüb gözlərinin giləsi.
Sənə arxa olsun beləsi,
Bəlanı üstündən atdadar hərdən.

GÖZLƏMƏZ

Bir insanın əsli-zatı olmasa,
Evlər yıxar, düz ilqarı gözləməz.
Verdiyini tezcə qaxar başına,
Sədaqəti, etibarı gözləməz.

Əli dağa çatmaz, qardan danışar,
Gözü çöldə gəzər, yardan danışar.
Namusdan, qeyrətdən, ardan danışar,
Namusu, qeyrəti, arı gözləməz.

Şəhriyazı durub çəkir sınağa,
Özünü göstərir toyda qonağa.
İcazəsiz durub çıxar qabağa,
Yanındakı sənətkarı gözləməz.

SAXLAMADIN

Səni başa saldım, nəsiyət etdim,
Yadında bir sözü düz saxlamadın.
Uydun içindəki şeytan felinə,
Dar günə ocaqda köz saxlamadın.

Adını batırıb yaman eylədin,
Danışıb üzümə nələr söylədin.
O haqqı-salamı görən neylədin?
Dilində bir şirin söz saxlamadın.

Qalxıb qabağımda necə dayandın?
Nə alışdın, nə utandın, nə yandın.
Bilmədim qızardın, yoxsa utandın,
Üz-üzə gələndə göz saxlamadın.

Yaxşıca mahirsən sözü sormaqda,
Ustadan ustasan başlar yormaqda.
Oturanda elə coşdun vurmaqda,
Əllini hortdatdın, yüz saxlamadın.

Şəhriyazın sözdü olan sərvəti,
Biz ki dərdləşmişdik gizlin, xəlvəti.
İtirdi hörməti, atdın isməti,
Gəlib barışmağa üz saxlamadın.

GÜLMƏSİN

El içində ağır tərpən, düz dolan,
Kənardan baxanlar barı gülməsin.
Layiqsiz danışma, ədəbsiz olma,
Gözəl inciməsin, qarı gülməsin.

Yalan üz qızardar, yalan deməynən,
Oğul zay etməsin ata əməyin.
Amandır, amandır, imkan verməyin,
Tülkü baxıb şirə sarı gülməsin.

Şəhriyazı zaman etdi əsəbi,
Dadına yetmədi loğmanın həbi.
Zərrə qədər ucuz tutma sən təbi,
Elimizin sənətkarı gülməsin.

ELİ ÇÜRÜDƏR

Namərd kölgəsindən uzaqda dayan,
Səni çəkib əyri yolda yeridər.
Yalançı vədində doğruluq olmaz,
Başı qatıb daldalarda sürüdər.

Dörd yolu bəyənər mərifət əhli,
Saz-sözə vurğundu söz-söhbət əhli.
Qolundan yapışar səxavət əhli,
Silib göz yaşını səni kiridər.

Özüm öyrəşmişəm özüm tək qalam,
Elmi həqiqətdən gərək dərs alam.
Şəhriyaz, yerinə düşər bu kəlam,
Nanəcibin dərdi eli çürüdər.

AYIBDI

Hər tərəfdən göz qoyurlar adama,
Yalan yerə alışmayaq ayıbdı.
Bizi qınayarlar baxıb görənlər,
Yerli-yersiz danışmayaq ayıbdı.

Düz danışaq, bizi gözəl duysunlar,
Görünəndə bizi görüb saysınlar.
Yerimizi bilək, qiymət qoysunlar,
Hər yetənə qarışmayaq, ayıbdı.

Şəhriyaz hər yerə gedəsi deyil,
Hədəmiz o ilin hədəsi deyil.
Yaşımızın gənclik vədəsi deyil,
Tez-tez küsüb-barışmayaq ayıbdı.

YAXŞIDIR

Arif məzəmməti, aqil töhməti,
Bir nadanın hörmətindən yaxşıdır.
Həyalı gözəlin gözəl isməti,
Həyasızın ülfətindən yaxşıdır.

Çin olsun insanın arzu-diləyi,
Başında əsməsin şərin küləyi.
Ürəyi genişin yavan çörəyi,
Görməmişin sərvətindən yaxşıdır.

Şəhriyaz, başladın, saxlama işi,
Kəlməni deməmiş ağzında bişir.
Bəyzadə kişinin ağır yerişi,
Lovğaların hikmətindən yaxşıdır.

HÖRMƏTİNİ

Özgəsi insana hörmət eyləməz,
İnsan saxlamasa öz hörmətini.
Azacıq düşünən yalan söyləməz,
Layiqli qarşılar düz hörmətini.

Boynunda minnət var, alnında ləkə,
Görməmiş az qalır süfrəni sökə.
Ağıldan zay olan, başından yekə,
Bir onda unudar yüz hörmətini.

Şəhriyazdan kimsə görərmi zəhər?
Kömək istəyənə əlin yetirər.
Ariflər insanın qiymətin verər,
Sərraflar anlayar söz hörmətini.

DÜŞMƏZ

Aqil aqil olsa nadan öyünməz,
Danışılan söhbət hörmətdən düşməz.
Hər kəlmə ləl olub qiymətə minər,
Daha ucuzlaşıb qiymətdən düşməz.

Başa dərd yüklənər gözlərin dolsa,
Dodaq titrəyər yanağın solsa.
Ekran görüşləri abırlı olsa,
Gözəllər utanıb ismətdən düşməz.

Şəhriyaz qəm çəkir bu düz məkanda,
Hər mətah satılır indi dükanda.
Qarşılıqlı olsa ədəb-ərkan da,
Mərifət gözləyən mərfətdən düşməz.

UCUZLAŞAR

Zaman gələr, dövran elə dəyişər,
Əyrilər yanında düz ucuzlaşar.
Nə qədər bəzəsən baxanı olmaz,
Qəlb xain olanda üz ucuzlaşar.

Gözlərin sevinər gözə baxınca,
Barmaqlar qızarar həna yaxınca.
Tamahlanıb getsə var arxasınca,
Qiymətindən düşər, göz ucuzlaşar.

Şəhriyaz hər vədə boşalıb dolmaz,
Könülsüz görülən işin iş olmaz.
Satan yaxşı olsa mal əldə qalmaz,
Yazan zəif olsa söz ucuzlaşar.

QARIŞDIRAR

Satanın xisləti nadürüst olsa,
Gətirdiyi mala mal qarışdırar.
Sərraf olan mətahını korlamaz,
Qaymağın içinə bal qarışdırar.

Hələ dayanmısan yaxşı dur, dayan,
Sərvət aparmadı sərvətə uyan.
El içində danışana qulp qoyan,
Evinə dönəndə yol qarışdırar.

Şəhriyaz, hörməti hörmət yaradar,
Qeybət eyləyənlər, qeybət yaradar.
Mərdanə kişilər ülfət yaradar,
Aralığı ağlı kal qarışdırar.

UTANDIRAR

Gedənə boylanıb, gələnə baxan,
Adamı incidər, göz utandırar.
Nə xəcalət çəkər, nə də utanar,
Utanmazın oğlu üz utandırar.

Bilmərsən vaxt ötər, zaman nə deyər,
Yoxsulluq kasıbın qəddini əyər.
Yaxşı kişiləri eldə el öyər,
Aqili həyasız söz utandırar.

Şəhriyaz, sözlərin vəsiyyət olar,
Gücün çatmayan yük əziyyət olar.
Sərrafın kəlamı nəsiyət olar,
Namərdin balası düz utandırar.

TƏSNİFLƏR



ŞÜKÜR

Səni yaradan,
Xilqətə şükür.
Gözəllik verən
Qüdrətə şükür.

Sözünü duya,
Telini saya.
Abır-həyaya,
İsmətə şükür.

Əldə saz görən,
İşvə, naz görən.
Şəhriyaz görən
Hörmətə şükür.

YAXŞI SƏNƏTKAR

Gözəl yaradar,
Yaxşı sənətkar.
Könül oyadar
Yaxşı sənətkar.

Çöhrəsi solar,
Tutulub-dolar.
Həyalı olar
Yaxşı sənətkar.

Şəhriyaz çaşmaz,
Yanmasa coşmaz.
Yersiz danışmaz,
Yaxşı sənətkar.

AZƏRBAYCANDI

Ləli-gövhərim
Azərbaycandı.
Ən şah əsərim
Azərbaycandı.

Anlamaz nadan,
Dilin unudan.
Məni yaşadan
Azərbaycandı.

Abır-ismətli,
Sözlü-söhbətli,
Güllü-qüdərtli
Azərbaycandı.

Neməti ləziz,
Ürəyi təmiz.
Əzizdən əziz
Azərbaycandı.

ALLAH EŞQİNƏ

İnsafsız olma,
Allah eşqinə.
Gümansız olma
Allah eşqinə.

Qəflətdə yatma,
Haqqı unutma.
Vicdanı satma
Allah eşqinə.

Boş yerə ötmə,
Hər yerə getmə.
Dili zay etmə,
Allah eşqinə.

Olma tələsən
Külək tək əsən.
Həyalı ol sən,
Allah eşqinə.

Şəhriyaz çökür,
Gözdən yaş tökür.
Eyləyə şükür
Allah eşqinə.

GÖZƏLDİ, GÖZƏL

Ustad sənəti
Gözəldi, gözəl.
Qadın isməti
Gözəldi, gözəl.

Bilən yerini,
Ağlın dərini.
Dilin şirini
Gözəldi, gözəl.


Şəhriyaz hər an,
Olmaz usanan.
Həyalı insan
Gözəldi, gözəl.

SƏNİ GÖRƏNDƏ


Ürək sevinər,
Səni görəndə.
Gözlərim gülər
Səni görəndə.

Yanar yananlar
Candan usanar.
Üzlər utanar
Səni görəndə.

Könül bir quşdu,
Göylərə uçdu.
Şəhriyaz coşdu
Səni görəndə.



GƏRAYLILAR



QALDIM ALLAH, BAXA-BAXA

Gözüm gördü bir ustadı,
Qaldım Allah, baxa-baxa.
Məni haldan-hala saldı,
Qaldım Allah, baxa-baxa.

Bu nə səsdi, nə zəngulə,
Pəsdən qalxıb çıxdı zilə.
Yaş axıtdım gilə-gilə,
Qaldım Allah, baxa-baxa.

Şəhriyazam, mən bisavad,
Nəfsimə etdim cihad.
Ağam gəlib versin imdad,
Qaldım Allah, baxa-baxa.

DEMƏSİNLƏR

Harda olsan abır gözlə,
Həyasızdır deməsinlər.
Səbri, qəzəbə dəyişmə,
Nə qansızdır deməsinlər.

Əməlini eylə sübut,
Pislik nədir onu unut.
Əl açanın əlindən tut,
Amansızdır deməsinlər.

Şəhriyazı sən az sına,
Girmə gündə min cür dona.
Şeytan görüb uyma ona,
İmansızdır deməsinlər.

KİRİDİRƏM

Göz yaşımı gizləmişəm,
Ağlayanı kiridirəm.
Bəslənəsi vaxtım deyil,
Can yağımı əridirəm.

Əhvalımı saz eyləyən,
Qış günümü yaz eyləyən,
Dil açmamış naz eyləyən,
Aytacımı* yeridirəm.

Şəhriyazam, nə söyləyim,
İstəmədim qəlbə dəyim.
Söz ki gəlib açıq deyim,
Ömür-günü çürüdürəm.

* Aytac – şairin nəvəsidir.

SATIRSAN

Hardasan ay canı yanmış,
De görüm necə yatırsan.
Üz-gözünə sığal çəkib,
İndi kimə söz atırsan.

Bilirdim nələr bilirsən,
Gecə yuxuma gəlirsən.
Yenəmi elə gülürsən,
Yoxsamı qəmə batırsan.

Şəhriyazla baş qatardın,
Görüşməyə can atardın.
Bir vaxt mənə naz satardın,
İndi çöldə göy satırsan.

BOŞANIRSAN

Dayan görüm, lovğalanma,
Sən özünü nə sanırsan.
Bu gün deyilmiş bir sözü,
Bircə həftəyə qanırsan.

Görünüşün şahanədi,
Sənin üçün baha nədi?
Yanmağın da bəhanədi,
Demə yalandan yanırsan.

Şəhriyaz bil söz götürmür,
Haqqı-salamı itirmir.
Ağlın-huşun düz gətirmir,
Evlənməmiş boşanırsan.

ALASIYMIŞ

Olacağa çarə yoxdur,
Olan elə olasıymış.
Göz yaşını tökən bulud,
Sabah yenə dolasıymış.

Nədən daha gileylənək,
Yalan deyil, budur gerçək.
Bahar vaxtı açan çiçək,
Xəzan olub solasıymış.

Şəhriyaz, yaz bildiyini,
Kim unudar sevdiyini.
Tanrı bizə verdiyini
Son məqamda alasıymış.



ATAMMIRIQ

Kərəm Kürqıraxlının şeirinə nəzirə

Düşündükcə fikirləri,
Başımızdan atammırıq.
Ləpə üstə ləl gəzirik,
Dəryalara batammırıq.

Aşıq var ustadı yoxdu,
Sinəsinin odu yoxdu.
Nə yeyirik dadı yoxdu,
Yağı bala qatammırıq.

Cılızlaşıb toyumuz da,
Gedib haqqı-sayımız da.
Qalmışıq öz hayımızda,
Dost qolundan tutammırıq.

Günləri necə sovası,
Hanı dağların havası.
Ekran olub caz yuvası,
Başımızı qatammırıq.

Şəhriyaz, sən yerində dur,
Axır sözün canı budur.
Bizə nə var kim nə udur,
Bircə manat qırtammırıq.

SİQARETLƏ ÖPÜŞÜRÜK

Qohum-qardaş uzaq düşüb,
Hərdən-hərdən görüşürük.
Tamah gözümüzü tutub,
Sərvət üstə didişirik.

İndi kim kimi anlayır,
Uşaq böyüyü danlayır.
Yazda qanımız qaynayır,
Qış gələndə bürüşürük.

Şəhriyaz solubdu yanax,
Zəhərlənib dillə-dodax.
Allah, bizdə ağıla bax,
Siqaretlə öpüşürük.

PİYLƏNİRSƏN

İxtiyarın əlindədir,
Yekələnib, bəylənirsən.
Keçmişini unutmusan,
Güclənirsən, səylənirsən.

Xasiyətin dədən kimi,
Hərəkətin gədən kimi.
Uşaq küyə gedən kimi,
Havalanıb küylənirsən.

Şəhriyaz düşməz gümana,
Düzdür ilqara, imana.
Sənindir bu zamana,
Qarın verib piylənirsən.

AR BİLİRİK

Könlümüzü küsdürmüşük,
Barışmağı ar bilirik.
Lovğalanıb öyünürük,
Çalışmağı ar bilirik.

Göz danışar göz dilində,
Düz danışar düz dilində.
Anamızın öz dilində
Danışmağı ar bilirik.

Şəhriyaz, de kəsərsizik,
Demək olmur kədərsizik.
Elə şey var xəbərsizik,
Soruşmağı ar bilirik.



ƏZDİRƏ-ƏZDİRƏ

Məclislərdə şeir dedi,
Bizi bezdirə-bezdirə.
Cismi canı şirələndi,
Başı gəzdirə-gəzdirə.

Sığal çəkib tumarlandı,
Ütülənib hamarlandı.
Təriflənib xumarlandı,
Gözü süzdürə-süzdürə.

Şəhriyaz boynunu bükdü,
Adı özünə bir yükdü.
Olan ətimizi tökdü,
Sözü əzdirə-əzdirə.

ÜZÜNƏ

Gözəl, sənin naz vaxtındı,
Tel tökülüb tel üzünə.
Tər-təzəcə yaz vaxtıdı,
Gülüş qonub gül üzünə.

Dinəndə nazlanıb dinir,
Dönəndə boylanıb dönür.
Yeriyəndə yol sevinir,
Əsib dəyir yel üzünə.

Şəhriyaz olub söz deyən,
Səxavətə boyun əyən.
Elin çörəyini yeyən,
Ağ olarmı el üzünə?

DƏDƏLƏŞƏR

Dost axtarıb dostu tapar,
Zəng eyləyib vədələşər.
Hörmət qoyan hörmət görən,
Qocaldıqca dədələşər.

Oduma çox yanmamışam,
Doğru sözü danmamışam.
Kişi gördüm səhər-axşam,
Xoruzlanıb hədələşər.

Şəhriyaz çağlayıb daşan,
Təbi ümman, özü coşan.
Gədələrə başın qoşan,
Gədə kimi gədələşər.



SƏNİ DUYAN GÖRƏ BİLƏR

Dərd daşımaqla məşğulam,
Dəftərə, kitaba qulam.
Sulara qərq olmuş çulam,
Odur ki, görmürlər məni.

Giya Paçxataşvili

Duyğusuza bel bağlama,
Səni duyan görə bilər.
Dərdsiz nə bilər dərd nədi,
Səni duyan görə bilər.

Səndə nə var yaxın gələ,
Baxan indi baxır ələ.
Dərdin damla olsa belə,
Səni duyan görə bilər.

Yenə bir gün görüşərik,
Dərdli dərdə olar şərik.
Bilirsən ki, həmişəlik,
Səni duyan görə bilər.

Heç olarmı ağ-dumansız,
Olma belə çox gümansız.
Minnət qoymaz təmənnasız,
Səni duyan görə bilər.

Şəhriyazın budur varı,
Ömür getdi oldu yarı.
Sənin kimi sənətkarı,
Səni duyan görə bilər.

DEMİŞƏM

Gedən qışı yola salıb,
Gələn yaza yaz demişəm.
Səsi məni ovsunlayıb,
Telli saza saz demişəm.

İstəyirsən oda yanım,
İstəmirsən ol həyanım.
Hərdən mənə a ceyranım,
Eyləyibsən naz demişəm.

Şəhriyaz hər zaman dinmir,
Xəyalı göylərdən enmir.
Sinəmin varı tükənmir,
Nə demişəm az demişəm.

SÖZ OXU

Getmişdin niyə qayıtdın?
Dur meydana gir söz oxu.
Qalxıb sənə yol göstərdim,
Köklə saz düz söz oxu.

Dostlarıma sən yanaşma,
Kim hardandır gəl qarışma.
Aşıqsansa yer soruşma,
Ustadlardan bir söz oxu.

Dınqıltıya yerikləmə,
Zər kəlamı didikləmə.
Şəhriyazı hərifləmə,
Pir əhliyəm pir söz oxu.

O DAĞLARIN ƏTƏYİNDƏ

Dizin-dizin sürünmüşəm,
O dağların ətəyində.
Gül-çiçəyə bürünmüşəm,
O dağların ətəyində.

Zirvəsinə can atmışam,
Arxasında çox yatmışam.
Əllərimi qanatmışam,
O dağların ətəyində.

Şəhriyazın dili laldı,
Havası xoş , suyu baldı,
Özüm gəldim izim qaldı,
O dağların ətəyində.

USTADLARIN KÖLGƏSİNDƏ

Könlüm yenə havalandı,
Ustadların kölgəsində.
Kərəm kimi yaralandı,
Ustadların kölgəsində.

Yaşamıram can üzürəm,
Özüm özümdən bezirəm.
Dürr axtarıb ləl gəzirəm,
Ustadların kölgəsində.

Şəhriyazam, tənha kolam,
Sevincdən az, dərddən bolam.
Yaradana özüm qulam,
Ustadların kölgəsində.

GÜNAH MƏNİM ÖZÜMDƏDİ

Bir kimsədən gileyim yox,
Günah mənim özümdədir.
Çox olsa da əməyim çox,
Günah mənim özümdədir.

Danışdılar dözəmmədim,
Yola çıxıb gəzəmmədim.
Çox dedilər düzəlmədim,
Günah mənim özümdədir.

Şəhriyazam, əsir oldum,
Bu həyatdan kəsir oldum.
Bilə-bilə yesir oldum,
Günah mənim özümdədir.

GÖZƏL GÖRÜNÜR

Könlüm gəzən o yerlərin
Düzdəri gözəl görünür.
Naz etləyən gözəllərin
Üzdəri gözəl görünür.

Dediyimi ar bilirəm,
Başındakı qar bilmirəm.
İçində nə var bilmirəm,
Sözdəri gözəl görünür.

Şəhriyaz hər qapı döyməz,
Yersiz bir kimsəni öyməz.
Başı bir qəpiyə dəyməz,
Gözdəri gözəl görünür.

İÇİNDƏ

Kərəm Kürqıraxlıya

Şair, gözəl zövqün varmış,
Gül gəzirsən gül içində.
Mən axtaran sənətkarsan,
Köz gəzirsən kül içində.

Bəzən könül səbir etmir,
Arzu-istək başa yetmir.
Axtarışın başa getmir,
Dür tapırsan ləl içində.

Şəhriyazam, mən demişəm,
Görüşəndə sevinmişəm.
Kərəm, səni bəyənmişəm,
Sənətkarsan el içində.

DANIŞAR

Ağlı-huşu olan kəsin,
Dili şirin söz danışar.
Belə ceyranı görənin
Dili susar, göz danışar.

Yerində durub qalmayan,
Yadına dərdi salmayan.
Səbrinə hakim olmyan,
Qızışanda tez danışar.

Şəhriyaz qəm ölçüsüdür,
Var olanın dilçisidir.
Şair elin elçisidir,
Danışanda düz danışar.

GƏLƏSƏN

Ürəyim səni istəyir,
Gələsən bizə gələsən.
Gözüm yolunu gözləyir,
Gələsən, bizə gələsən.

Yaz edəsən qış ilimi,
Ətirlədəsən gülümü.
Sevindirib bu könlümü,
Gələsən, bizə gələsən.

Sənsiz halımı görəsən,
Nazla məni dindirəsən.
Şəhriyaza can verəsən,
Gələsən, bizə gələsən.

OYNADIR

Toya gələn gözələ bax,
Tutub əldə gül oynadır.
Bəzənib başdan ayağa,
Naz eyləyib bel oynadır.

Eşqin oduna qalanır,
Yad baxışdan daldalanır.
Sona tək süzüb dolanır,
Kürəyində tel oynadır.

Şəhriyaz, yaz sətir-sətir,
Mətləbini yaxşı götür.
Ay sənətkar, nəzər yetir,
Göz süzdürüb əl oynadır.


YAMAN GÖZƏLLƏŞİB

Gedən gözəli seyr elə,
Teli yaman gözəlləşib.
Yanağı gülə bənzəyir,
Gülü yaman gözəlləşib.

Burnu fındığın dənəsi,
Lələ bənzəyir çənəsi.
Mərmərdir ağca sinəsi,
Əli yaman gözəlləşib.

Şəhriyaz baxıb söküldü,
Düz qaməti tez büküldü.
Ağzından gövhər töküldü,
Dili yaman gözəlləşib.

QOŞMALAR



BELƏ YAZASAN

Sözlərin bal kimi süzülüb gələ,
Yazanda da gərək belə yazasan.
Məntiqli kəlmələr ürək tərpədə,
Yazanda da gərək belə yazasan.

Sözlərin düz dəyə gərək hədəfə,
Yazdığın bənzəyə dürə, sədəfə.
Oxuyanlar əhsən deyə hər dəfə,
Yazanda da gərək belə yazasan.

Sözlərin sinədən qaynayıb daşa,
Beyitin-beyitlə düz uyğunlaşa.
Sözün gərək bir-birinə yaraşa,
Yazanda da gərək belə yazasan.

Sözlərin olmaya dönüm-döngəsi,
Üstündə dayana haqqın kölgəsi.
Mütənasib ola fikrin cərgəsi,
Yazanda da gərək belə yazasan.

Sözlərin düz ola yerli-yataqlı,
Şəhriyaz axtara əli çıraqlı.
Misrası bəzənə zərli-saçaqlı,
Yazanda da gərək belə yazasan.

AY OLMAZ-OLMAZ

Bəzi "istedadlı" şairlərin şeirini oxuyarkən

Ağlını cəm eylə, yaxşı fikirləş,
Səndən şair olmaz, ay olmaz-olmaz.
Gecə-gündüz az qurdalan, az əlləş,
Səndən şair olmaz, ay olmaz-olmaz.

Şairlik nə peşə, nə də sənətdir,
Şairlik istedad, fitri qüdrətdir.
Yazdığın yazılar sənə töhmətdir,
Səndən şair olmaz, ay olmaz-olmaz.

Çətini buraxıb qaçma asana,
Barı hörmət eylə o ada, sana.
Nahaq meyl edirsən şöhrətə-şana,
Səndən şair olmaz, ay olmaz-olmaz.

Gətirə bilmirsən sözün gerisin,
Başın macal versin, dilin kirisin.
Şair gərək gilə-gilə ərisin,
Səndən şair olmaz, ay olmaz-olmaz.

Şəhriyazam, bir bax göz görə-görə,
Xəcalət çəkirəm mən sənə görə.
Ömrünü xərcləmə boş hədər yerə,
Səndən şair olmaz, ay olmaz-olmaz.

EL BAŞINA DOLANDIR

Könülüm gileylidir, insafın olsun,
Gəzdir məni gül başına dolandır.
Nə dövlətdə, nə sərvətdə gözüm yox,
Qaldır məni lələ başına dolandır.

Bağlanmışam imanıma, dinimə,
Sevinmərəm şah da çıxsa önümə.
Tamarzıyam çöldə keçən günümə,
Apar məni çöl başına dolandır.

Nadanın bilinməz başı, ayağı,
Eldə nəyi var ki, olsun dayağı?
Tut əlindən bir dilənçi sayağı,
Şəhriyazı el başına dolandır.

DAĞLARDA QALDI

Yorunuq olmuşam, əldən düşmüşəm,
Dizimin taqəti dağlarda qaldı.
Gözəl günlərimi illər apardı,
Könlümün həsrəti dağlarda qaldı.

Yaddan çıxmır saca kətə qoymağı,
Basdıması, qızartması, quymağı.
Nənələrin qovurması, qaymağı,
Dədələr sərvəti dağlarda qaldı.

Ömür himim zədələndi, söküldüm,
Canım getdi, ayaq üstə büküldüm.
Şəhriyazam, yanıb-yanıb töküldüm,
Elimin qüdrəti dağlarda qaldı.

DOLANDIRMADIM

Tanrı bağışlasın günahlarımı,
Başımı baş kimi dolandırmadım.
Tamah salmamışam hər gördüyümə,
Dili-dodağımı yalandırmadım.

Qəlbimin evinə qohumdu kədər,
Olan varlığımı edib dərbədər.
İnanın deyirəm bir zərrə qədər,
Gözəl ürəyimi bulandırmadım.

Şəhriyazam, sözə-sənətə uydum,
Əziyyət görsəm də demərəm doydum.
Ağıl-düşüncəmə qadağa qoydum,
Baxan gözlərimi sulandırmadım.



DÖNƏ-DÖNƏ

Gözəlim, hayıfdı əsir eyləmə,
Tökülsün üzümə tel dönə-dönə.
Şirin söhbətinə həsrət qalmışam,
Dilləns in ağzında dil dönə-dönə.

Çoxuna dərd oldu vəcdə gəlməyim,
Sənətimi az-çox yaxşı bilməyim.
Bir az təskinlikdir üzdə gülməyim,
Keçir xəyalımdan çöl dönə-dönə.

Şəhriyaz sussa da hərdənbir dinər,
Getdiyi yolundan çətin ki dönər.
Camalın görəndə könül sevinər,
İstəyirsən hər ay gəl dönə-dönə.

DƏYSİN

Ay insafsız, gözləmişəm gəl barı,
Göz-gözü seyr etsin əl-ələ dəysin.
Elə yeri nazın yolu yandırsın,
Kürəkdə yellənsin tel-telə dəysin.

Cəfakeş canımın durma qəstinə,
Yaxın gəl isinim sənin istinə.
Qoy başımı qoyum dizin üstünə,
Yel əssin bağçada gül-gülə dəysin.

Şəhriyaz gözləsin vaxtın-vədəsin,
Nə ürək sızlasın, nə də inləsin.
Yuxuda versinlər eşqin badəsin,
Dodaq şirələnsin, dil-dilə dəysin.

UTANSIN

Mənim nəyim varsa göz önündədir,
Əyri olub düz danışan utansın.
Xəcalət çəkmirsə mən neyləyim ki,
Gec düşünüb tez danışan utansın.

Sözümü anlamaz arif olmayan,
Ürəkdən keçəni azdı, az duyan.
Lovğalığı yerə-göyə sığmayan
Mənəm deyib biz danışan utansın.

Gözlərim, uzaq ol şərdən, daldalan,
Canımız gedəndi, adımız qalan.
Şəhriyazın qarşısında lal olan,
Arxasında söz danışan utansın.



YAZDIM

Qələm götürəndə heç ərinmədim,
Çəmənə, yamaca, gülə də yazdım.
Xəyalım dolandı qoşa dağları,
Dərəyə, təpəyə, çölə də yazdım.

Məni duyanların gördüm hörmətin,
Layiq olanların verdim qiymətim.
Bəzədim gözəlin qəddi-qamətin,
Yanağa, buxağa, telə də yazdım.

Bu taydan boylanıb baxdım o taya,
Uşaqlar hay verib gəldilər haya.
Yazda aşıb-daşan coşqun bir çaya,
Mürgülü dayanmış gölə də yazdım.

Dilim kəlmələri yan-yana qoşdu,
Əziyəti mənə keyfimdən xoşdu.
Könül duyğularım titrədi, coşdu,
Başa tərif dedim, ələ də yazdım.

Şəhriyazam, qoyun-quzu otardım,
Yaylaqlarda daşın üstə yatardım.
Nə saxlaya bildim, nə də qaytardım,
Söz necə gəlmişdi, elə də yazdım.

QARIŞDI

Özüm də bilmirəm vaxt necə keçdi,
Ömrün payızıyla qışı qarışdı.
İllər ayrısıydıq, bir gün görüşdük,
Üzdə gözümüzün yaşı qarışdı.

Laylalı dilini kimlər unutdu,
Arifi nadanlar yerdə oturtdu.
Eşitdim ürəyin ağrısı tutdu,
Sənətkar içinə naşı qarışdı.

Sanışsan da birdi, sussan da birdi,
Dünya bir aləmdi, dünya fikirdi.
Əhliyyət Məmmədli sifariş verdi,
Zakir Şəhriyazın başı qarışdı.

TANIŞDI

Nə söyməli deyil, nə də atmalı,
Bu başı batmış da belə tanışdı.
Dilin şirinliyi ürək qızdırar,
Əlin hərarəti ələ tanışdı.

Ağrılar gələndə güc eylər cana,
Sızlayıb deyərsən ay ana, ana.
Dəyişib girsə də əlli min dona,
Yaltaqlar həmişə elə tanışdı.

Çox yanmışam ömrün keçən ilinə,
Həsrət qaldım yurdumuzun çölünə.
Şəhriyazın əli sənin telinə,
Bülbülün nəfəsi gülə tanışdı.

BAŞINA DOLANDIM

O dağların qiymətini bilmədim,
Heyif oldu, gec başına dolandım.
Bəli deyib bir qabağa çıxmadım,
Bilə-bilə güc başına dolandım.

Ayağım ləngidi, ilim tələsdi,
Üstümə çöllərin küləyi əsdi.
Nə ağlım gətirdi, nə huşum kəsdi,
Dönə-dönə gic başına dolandım.

Şəhriyaz haqq nədir az-çox duyurdu,
Qəflət yuxumsunda yatıb uyurdu.
Zaman hökm verdi, dövran buyurdu,
Görə-görə bic başına dolandım.



MƏNƏ

Kövrələn vaxtımdır, o doğma kəndim,
Tamarzıyam qaymağına, süzmənə.
Yuxuda sənlə birdən görüşdüm,
Ləzzət verdi ocaq mənə, köz mənə.

Xəyalımdan getmir neçə il qabaq,
Yeyərdim sənlə ballı qayğanaq.
Hardan durub, hara gəlmişəm qonaq,
Kəkotulu çayın varsa süz mənə.

Qurd yeyər quzunu qalanda yalqız,
İnsan kobudlaşar olanda arsız.
Mən bir fağır oldum, sən bir insafsız,
İşıq verdin, bir vermədin göz mənə.

Baxışın nə gözəl, səsəin nə qəşəng,
Yanağın lalədir, dodağın çiçək.
Gəlmişəm sənlə bir az dərdləşək,
Demədim ki, dodağını büz mənə.

Şəhriyaz yalvarıb tutdu qolundan,
Mərhəmət istəməz ağa qulundan.
Şeytanmı azdırdı səni yolundan,
Neyləmişdim göstərmədin üz mənə.

YA QİSMƏT

Yay gələndə o gəzdiyim dağları,
Bir də görəm, ya görməyəm, ya qismət.
“Biçənəkli” düzü, “Elçi daşı”nı,
Bir də görəm, ya görməyəm, ya qismət.

Qaytarardım yamaclardan qoyunu,
Oynayardım “Dirədöymə” oyunu.
“Bulaqlar”ın baldırğanlı suyunu,
Bir də görəm, ya görməyəm, ya qismət.

Görmürəm zamanın ehtibarını,
Urvatsız etdilər söz bazarını.
Təzəklidə “Əyri tarın” qarını,
Bir də görəm, ya görməyəm, ya qismət.

Çıxarmaram yaddan “Telli tikə”ni,
“Qıjılı bulağı”, “Quru dərə”ni.
“Təkədonduran”ı, “Dəmir təpə”ni,
Bir də görəm, ya görməyəm, ya qismət.

Yuxumda görmüşəm Güllüdüzünü,
O xoş sifət insanların üzünü.
“Dərə yerlə”, “Tikanlı”nın düzünü,
Bir də görəm, ya görməyəm, ya qismət.

Fələk verdi Şəhriyazın payını,
Yaman günə qoydu gələn yayını.
“Ortaxlı”nı, “Ayölən”in çayını,
Bir də görəm, ya görməyəm, ya qismət.

YOLDADI

Ay Əhliyyət, sən dediyin ustadın,
Başı qarışıqdır, yaman haldadır.
Abbas kimi ağasını haraylar,
Qəmin havasını çalhaçaldadır.

Təzəcə özünə gələndən bəri,
Itirib ağlını, olub sərsəri.
Allah göstərməsin heç kimə şəri,
Bir bəlaya düşüb qalmaqaldadır.

Siradaşı olmuşuq indi həsrətin,
Yurdsuz yaşamaq da çətindir, çətin.
Şəhriyazı zəng eyləyib istədin,
Evdən təzə çıxıb, gəlir yoldadır.

DEYİL

Yurdumuz-yuvamız çox qəribsəyib,
Açan güllərini el dərən deyil.
Ağsaqqal qocalar, köhnə qarılar,
Məni bir də görüb dindirən deyil.

Namərdin nəyi var, sənə nə verər,
Dindirəndə onu başına döyər.
Dünya dağılsa da məğrur kişilər,
Başını aşağı endirən deyil.

Arının şan balı dəymir gözümə,
Təsəlli verirəm özüm-özümə.
Oğrun-oğrun baxma solmuş üzümə,
Şəhriyaz qocalıb, sən görən deyil.

APARDILAR

Başı boşla, əli əyri olanlar,
Bizim işimizə əl apardılar.
Ləngərli kişilər yanıb töküldü,
Naşı məclisinə ləl apardılar.

Ülfət ola qol boyuna sarışa,
Söz söhbətə, söhbət sözə qarışa.
Dəbdəbəli, modda olan yarışa,
Topal yaxalayıb, şil apardılar.

Şəhriyaz göz yaşı saldı varağa,
Şahi-mərdanımsan, əldən tut ağa.
Sağlığında ata düşdü yatağa,
Öləndə qəbrinə gül apardılar.

GƏLƏR

Allah bir insanın payın veribsə,
Təbibsiz, dərmansız, loğmansız gələr.
Deyəndə düz deyib bizim dədələr,
Pisin öhdəsindən imansız gələr.

Dərin dəryaları gəzməknən deyil,
Eşqin şərbətini içməknən deyil.
Arayıb, axtarıb, seçməknən deyil,
Məhəbbət könülə fərmansız gələr.

Şəhriyaz, nadanı gəl az qurdala,
Səni başa düşməz, çəkil dur dala.
Özgənin dərdinə çox gülmə, bala,
Dərd gələndə bil ki, amansız gələr.

ÇƏKƏRMİŞ

Tarixi unutma, ay gavur oğlu,
Türk cövlan edəndə nərə çəkərmiş.
Mənim babalarım xeyir əmələ,
Sənin babaların şərə çəkərmiş.

Yalançıyla neçə başı piyləyib,
Bilirəm o zalım nələr eyləyib.
Özü kimisini tutub əyləyib,
Gözdən uzaq, dalda yerə çəkərmiş.

Şəhriyaz, incimə dili zəhərdən,
Ürəyini sıxma ahdan-qəhərdən.
Torpaqları götürülüb bir yerdən,
Ər arvada, arvad ərə çəkərmiş.

MƏNİ QORXUDAN

Kövrəklik olubdu məndə əzəldən,
Gözdən axan yaşdı məni qorxudan.
Qabaxdan gələnə nər tək dözərəm,
Daldan gələn daşdı məni qorxudan.

Qarına nə var ki, könül olsun tox,
Bu sözü həmişə mən demişəm çox.
Dolu olsa deyərəm ki, eybi yox,
Boş bəzəkli başdı məni qorxudan.

Bəxtəvər o kəsdi heç nə duymasın,
Dünyanın sirrinə baxıb uymasın.
Şəhriyazı yarı yolda qoymasın,
Başımdakı huşdu məni qorxudan.

ƏTRAFINDA

Canlanır bu vədə dəniz kənarı,
Gözəllər nazlanır göz ətrafında.
Axşamların sərin mehi əsəndə,
Telləri yellənir üz ətrafında.

Huşum birdən gedir, görmürəm önü,
Kənara bəs necə çevirim yönü.
Novruz gəlhagəldə çərşənbə günü,
Uşaqlar oynayır köz ətrafında.

Yemək də onundu, mədə də onun,
Söyüş də onundu, hədə də onun.
Zaman da onundu, vədə də onun,
Yaltaq baş girləyir düz ətrafında.

Paltarı alışıb gur işıq salır,
Dili kəlməsini dolaşıq salır.
Köklə şəkilçini qarışıq salır,
Canını çürüdür söz ətrafında.

Şəhriyaz heç nəyi istəməz yoxdan,
Üzülüb gedibdir can yaxa-yaxdan.
Oğrular aradan çıxıbdır yoxdan,
Polis eşələnir iz ətrafında.

UTANDIM

Maşına minəndə düşdü aşağı,
Gəl maşını gir deməkdən utandım.
Nə eləyim, əsəblərim pozuldu,
Bir susmaqdan, bir deməkdən utandım.

Günlərlə düşünüb əziyyət çəkdim,
Dağlardan ötəri mən həsrət çəkdim.
Yanıma gələndə xəcalət çəkdim,
Ağılsıza sir deməkdən utandım.

Şəhriyaz oxşadı Arazla, Kürə,
Çalışdı ömrünü bir babat sürə.
Dili bir cürədi, ağlı bir cürə,
Beləsinə pir deməkdən utandım.

HAYIF OLMASIN

Naşıya nə var ki, diqqət yetirin,
Kişilər söhbəti hayıf olmasın.
Sevən sevgisinə elə qovuşsun,
Gözəllər isməti hayıf olmasın.

Hər mənəm deyəndə bəli deməsin,
Ağılı-huşu olsun üz göstərməsin.
Şöhrəti adını kölgələməsin,
Qadın ləyaqəti hayıf olmasın.

Şəhriyaz istər ki, gündə görüşsün,
Deyişəndə hal-əhliylə deyişsin.
Düşəndə sənətkar əlinə düşsün,
Aqillər hikməti hayıf olmasın.

BƏSLƏYİRSƏN

Gözəlim, bu necə nazdı, qəmzədi,
Telə sığal verib üz bəsləyirsən.
Şair dostum Tanrı verdiyi təblə,
İnci kəlmələri düz bəsləyirsən.

Gözünü kor edib, kor edib nəfis,
Ömürlük sərvətə olmusan həris.
Dilim səxavətdi, əməlin xəsis,
Cibində əllilik, yüz bəsləyirsən.

Şəhriyaz, adıma haqqı-say düşüb,
Gözündən bəzəkli o saray düşüb.
Tanrıdan bir zərrə sənə pay düşüb,
Sinənin altında söz bəsləyirsən.

ÇIXARDILAR

Tamarzıyıq sanki sözə-söhbətə,
Ekrana nə gözəl baş çıxardılar.
Milləti şeirlə ovsunladılar,
Qurunu isladıb yaş çıxardılar.

Yarışa gəliblər cılız gümanla,
Qoltuqları şişir şöhrətlə-şanla.
Özlərin öydülər ədəb-ərkanla,
Sərrafın gözünü çaş çıxardılar.

Şəhriyaz, dinəndə yaman dindilər,
Qəvvas olub dəryalara endilər.
Axtara-axtara geri döndülər,
Ləl adına gedib daş çıxardılar.

OLSUN

Kişi gərək düz gəzdirsin başını,
Elinin içində hörməti olsun.
Ağsaqqal yanında ədəb gözləsin,
Danışdığı sözün qiyməti olsun.

Borc verib alanı hədələməsin,
Borc alıb günləri vədələməsin.
Şöhrəti gözünü pərdələməsin,
Ağıllı-kamallı sərvəti olsun.

Şəhriyaz, aqillər durub boş yerə,
Amandır qoymayın düşməsin şərə.
Şeytana uymasın nəfisə görə,
Yavan çörəyinin ləzzəti olsun.

BƏYƏNƏR

Canı əzizləyib, saxlayan insan,
Aldığı paltarı özü bəyənər.
Görünəndə çəkər nəzər diqqəti,
Düz olan həmişə düzü bəyənər.

Yaradan veribsə ona qüdrəti,
Çatdırar aləmə gözəl hikməti.
Sənətkar dilindən çıxan söhbəti,
Əllisi yox, vallah , yüzü bəyənər.

Şəhriyaz az bildi dünya sirrini,
Düşündü, axtardı, gəzdi dərini.
Naşı nə bilərki sözün qədrini,
Söz sərrafı yaxşı sözü bəyənər.



YAZMAMISAN

Bir şairin şeir kitabını oxuyarkən

Açıb vərəqlədim mən kitabını,
Qəlbimi tərpədən söz yazmamısan.
Sığal çəkməmisən kəlmələrinə,
Gözü kor qoymusan göz yazmamısan.

Saz olan bölümü naşı vermisən,
Ürəyin göynəyib yaşı vermisən.
Vətəndən ötəri başı vermisən,
Düzü düzdəmisən, düz yazmamısan.

Şeir belə olmur, a şair qardaş,
Fikir boz görünür, beyitlər nimdaş.
Yersiz təşbehlərdən çalış uzaqlaş,
Közü söndürmüsən köz yazmamısan.

Misranın suyunu yaxşı sıxmısan,
Elə bil ki, üzə təzə çıxmısan.
O boyda kitabın evin yıxmısan,
Üzü qaraltmısan, üz yazmamısan.

Gecələr uzunu xəyala daldın,
Kim bilir nələri yadına saldın.
Şəhriyazın gözəl vaxtını aldın,
Vallah nə yazmısan, düz yazmamısan.

HAYIF EYLƏDİ

Gorunuz çatlasın ay düz kişilər,
Düzləri gör kimlər hayıf eylədi.
Qarğalar bülbülün yoluna çıxdı,
İzləri gör kimlər hayıf eylədi.

Qızışanda durmaq bilmir çənələr,
Niyə əldən getdi o ənənələr.
Ay ismətli, ay həyalı nənələr,
Üzləri gör kimlər hayıf eylədi.

Şəhriyaz, kim kimi necə tərifləR?
Başımıza oyun açdı həriflər.
Sözün qiymətini bilən ariflər,
Sözləri gör kimlər hayıf eylədi.

ƏLƏ SALDILAR

Üz-üzə, göz-gözə, qabaq-qabağa,
Oturub milləti ələ saldılar.
Ədəbi-ərkanı qoydular lağa,
Abırı-isməti ələ saldılar.

Biri gileyləndi o günü ərdən,
Dəm vurdular qoçaqlıqdan, hünərdən.
Mərifət, qanacaq qaçdı nəzərdən,
İnsafı, mürvəti ələ saldılar.

Şəhriyaz, az qalır həddi keçələr,
Üç deyil, beş deyil, tutub seçələr.
Gününüzə baxın, körpə beçələr,
O gözəl sənəti ələ saldılar.

BELƏ OLSUN

Gəl əyri oturaq, gəl düz danışaq,
Düz hesab aparaq say belə olsun.
Dədə malı kimi yarıya bölək,
Qismət belə olsun, pay belə olsun.

Çəmənlikdə gəzib qoşa dincələk,
Gül-çiçək qoxlayıb yığaq bir ətək.
Körpə uşaq kimi ərköyünləşək,
Həftəmiz xoş keçsin, ay belə olsun.

Şəhriyaz, biz qoşa yan-yana duraq,
Quşların səsinə biz verək qulaq.
Süfrənin başında biz bardaş quraq,
Çörək ləzzət varsin, çay belə olsun.

ÜSTÜNDƏSƏN

Yarışıb zamanla nərd oynayırsan,
Zərin yaxşı verir şeş üstündəsən
Dünya sənin üçün yağlı bir cəmdək,
Nə qədər eşirsən eş üstündəsən.

Bədən ağrı bilmir, ayaq sürüşmür,
Əllərin titrəmir, ətim bürüşmür.
Qıl körpü, haqq-divan yadına düşmür,
Hələ ki, sökürsən leş üstündəsən.

Şəhriyaza xoşdu üzü ağlığın,
Təmiz adı olsun canda sağlığın.
Dost-tanış yanında bütün varlığın,
Beş gün yada düşər beş üstündəsən.

SIRALANMADI

Gecəni gündüzə qatıb əlləşdi,
Qələmdən-kağızdan aralanmadı.
Həyasız-həyasız üzə dirəşdi,
Ürəkdən bir dəfə yaralanmadı.

Yubley günündə məst olun uydu,
Şirin təriflərin nəşəsin duydu.
Yolunda canını başını qoydu,
Şeytan dəftərində qaralanmadı.

Şəhriyaz canından bir az nasazdı,
Beləsi tək olsa heç qınamazdı.
Yetmiş il yaşadı, əlli il yazdı,
Şair cərgəsində sıralanmadı.

GƏL QOŞA GEDƏK

Ülfət bağlamışıq ömür yolunda,
Dağları gəzməyə gəl qoşa gedək.
Təzəcə açılmış tər bənövşənin,
Nazını çəkməyə gəl qoşa gedək.

Körpə quzu anasını əməndə,
Oyun quraq qalxıb düşək kəməndə.
Sərin meh əsəndə yaşıl çəməndə,
Diz üstə çökməyə gəl qoşa gedək.

Şəhriyazı ovsunlardın sən əvvəl,
O vədəni yada salaq yaxın gəl.
Hardasan, hardasan ay dəcəl gözəl,
Ev-eşik tikməyə gəl qoşa gedək.

KÖLGƏSİNDƏ

Qəlbi təmiz, ürəyi düz olanı,
Yaradan saxlasın öz kölgəsində.
Günahka etməsin günahkar kimi,
Xəcalət qoymasın göz kölgəsində.

Aqilin hikməti gəlməyir kara,
Neyləyək, olmuşuq biz üzü qara.
Yalan həqiqəti sıxır divara,
Əyri ləzzət çəkir düz kölgəsində.

İlləri ötüşüb, günləri keçib,
İlham bulağından guya su içib.
Şəhriyaz özünə bir peşə seçib,
Başını girləyir söz kölgəsində.

DÖNDƏRƏR

Gözəl bir adamın gözəl bir sözü,
İnsanı bir özgə hala döndərər.
Güllərin üstündə dolaşan arı,
Çiçək şirəsini bala döndərər.

Yoxsulluq içində əriyər canı,
Ah-naləsi tutar bütün cahanı.
Kütbeyin, ağılsız dəli insanı,
Pul-para Rüstəmi-Zala döndərər.

Şəhriyaz, güvənmə bürcü-barına,
Tamarzı qalarsan mülkü-varına.
Həsrətlə baxarsan dağın qarına,
Yaradan başını çala döndərər.

KEÇMƏSİN

Yığışmışıq üç-dörd nəfər iş görək,
Yığışmadıq təriflənək öyünək.
Elə eyləyək ki, görənlər gərək,
Yandan baxıb gülə-gülə keçməsin.

Bilirəm ki, öz işinə bələdsən,
Sevinərəm işi yaxşı elətsən.
Nadürüstü kişi kimi mələtsən,
Bir də gəlib burdan belə keçməsin.

Fərqi nədir, bir qadındı, dörd kişi,
Cəhd eylədik görəmmədik bir işi.
Belədir zamanın çərxi-gərdişi,
Söhbətimiz hədyan dilə keçməsin.

Şəhriyazam, dostu nədən gözlədim,
Arxasınca adam salıb izlədim.
Yazdığımı gərək elə gizlədim,
Ömrü boyu naşı ələ keçməsin.

GÖRƏN OLMADI

Bir zərrədən ötrü bir ömür verdim,
Çürüyən vaxtımı görən olmadı.
Gecələr şam kimi başdan ayağa,
Əriyən vaxtımı görən olmadı.

Ah-naləm yandırdı küllü-aləmi,
Yollarda itirdim yetim Lələmi.
Götürə bilmədim ağır şələmi,
Sürüyən vaxtımı görən olmadı.

Şəhriyazam, dərdim oldu bir ətək,
Ətri yayılmamış tez soldu çiçək.
Anasın itirmiş körpə cüyür tək,
Məliyən vaxtımı görən olmadı.

ARXASINCA

Bu gedən ceyrandı, yoxsa bir pəri,
Yel vurub tərpənir tel arxasınca.
Görənin ağlını sərindən alır,
Baxıb şirələnir dil arxasınca.

Az-çox hörmət qalıb şükür hələlik,
Gözdən ki düşməyib eldə dədəlik.
Aylar nə tez keçir gileylənirik,
Yanıb tökülürük il arxasınca.

Bilmirəm mən özüm nəçiyəm, nəçi,
Səhər daş yonanam, axşam pinəçi.
Yazıq Şəhriyazam, olub dilənçi,
Sürünüb gedərəm el arxasınca.

DÖNƏR

Gileylənmə oğul, vaxtdan-vədədən,
Görərsən bir ilin bir ana dönər.
Yaxşılıq eyləyən yaxşılıq görər,
Yamanlıq çovğunlu dumana dönər.

Əzabdı-zülümdü sənətkar yolu,
Başı havalıdı, ürəyi dolu.
Əl çirki desinlər görəndə pulu,
Qartımış bir qarı ceyrana dönər.

Şəhriyaz olmadı nəzir-niyazlı,
Günlərin keçirdi söhbətli-sazlı.
İngilis yanında başı qapazlı,
Müsəlman görəndə aslana dönər.

BİR YANA

Sərraf istəyirəm gəlib ayırsın,
Gövhəri bir yana, ləli bir yana.
Elə qiymət qoysun, çaşıb getməsin,
Ürəyi bir yana, dili bir yana.

Bir gələnə baxın hara yollanıb,
Yanaqları çiçək kimi ballanıb.
Bu gözəlin çiyni üstə sallanıb,
Örpəyi bir yana, teli bir yana.

Yaramn qaysağın zaman qoparır,
Saçımın qarası gedib qurtarır.
Şəhriyazı dostlar çəkib aparır,
Əhliyyət[1] bir yana Əli[2] bir yana.



[1] Əhliyyət – şairin şair dostu
[2] Əli – şairin aşıq dostu

QƏLƏMİM

Güvənib öyünmə yekəliyinlə,
Gözündən qanlı yaş tökər qələmim.
Üç günə tikdiyin bürcü-barını,
Saxladıb himindən sökər qələmim.

Bər-bəzəkli başın keçər kəndirə,
Çörəyin küt gedər vursan təndirə.
Ağlının sədası yetməz heç yerə,
Dövrənə bir hasar çəkər qələmim.

Sarsıdar ömürlük son imdadını,
Pozar birdəfəlik sənin andını.
Kökündən sındırar qol-qanadını,
Edər dilənçiyə nökər qələmim.

Xor baxma bu elin haqqı-sayına,
Bel bağlama belə dılğır dayına.
Doğmaların gəlib çatmaz hayına,
Yöntəmsiz boynunu bükər qələmim.

Qadın kimi özün qalmırsan dəbdən,
Yeyəndə şişirsən kar gəlmir həbdən.
Zakir Şəhriyazı çıxarma təbdən,
Üstünə qartal tək çökər qələmim.

EL HƏMƏN ELDİ

Saçım ağarsa da paslanmamışam,
Ürək o ürəkdi, dil həmən dildi.
Sözün ovçusuyam söz ovlayıram,
Qələm o qələmdi, əl həmən əldi.

Boy verib cücərər yerdəki tək dən,
Asılı qalırıq bəzən bir tükdən.
Hələ ki sözümüz düşməyib kökdən,
Pərdə o pərdədi, tel həmən teldi.

Hər yoldan ötəni tutub əyləməz,
Ölsə də hər gülü tapıb iyləməz.
Köhnə adətini təzə eyləməz,
Bülbül o bülbüldü, gül həmən güldü.

İnsanlar dəyişib bir cür olsa da,
Bu dünya boşalıb gah da dolsa da.
Payız vaxtı gözəlliyi solsa da,
Çəmən o çəməndi, çöl həmən çöldü.

Şairin varı da, yoxdu da sözdü,
Sinəsin yandıran alovdu-közdü.
Gördüyüm mənzərə canımı üzdü,
Eyvan o eyvandı, tül həmən tüldü.

Uşağa xoş gələr öz dəcəlliyi,
Könülləri bəzər şirin dilliyi.
Nə adı dəyişər, nə gözəlliyi,
Gövhər o gövhərdi, ləl həmən ləldi.

Şəhriyaz unutmaz o gül camalı,
Çiçəkdən sorular arının balı.
Önə çəkməmişəm eli-mahalı,
Mahal o mahaldı, el həmən eldi.

OLMASIN

Bu bir təmənnadır keçir könlümdən,
Nadanlar, yamanlar üzdə olmasın.
Nəfisi özünün başını yesin,
Pisniyətin ahı gözdə olmasın.

Alçalar, ucalar insan dilindən,
Yaxşı da, yaman da gələr əlindən.
İnciyən incisin öz əməlindən,
Xatası bəlası bizdə olmasın.

Şəhriyaz, baş qoyma dünya sirrinə,
İnsan dayaq olar biri-birinə.
Nə deyirsə gərək yetsin yerinə,
Verdiyi vədəsi sözdə olmasın.

DÜŞMƏSİN

İxtiyar sahibi bir əlac eylə,
Qananın qanmaza işi düşməsin.
Ocaq qalayanı həvəsdən salma,
Əlində tutduğu şişi düşməsin.

Titrəməsin başı, əsməsin dodaq,
Nə üzü qırışsın, nə solsun yanaq.
Cavanlar hayıfdı vaxtından qabaq,
Beli bükülməsin, dişi düşməsin.

Şəhriyaz əyilməz yanıb bişsə də,
Qəlbinin başını namərd deşsə də,
"Vəzifə taxtından kişi düşsə də,
Kişilik taxtından kişi düşməsin".

EYLƏR

Vaxt-zaman insanı elə sındırar,
Gözlərinin yaşı axıb car eylər.
Yeməyi-içməyi zəhərə dönər,
Sızıldayıb gündə ahu-zar eylər.

Hər yerindən qalxan yekələnməsin,
Bir salama görə tikələnməsin,
Ağlı-huşu olan şübhələnməsin,
Yaradan hər şeyi yoxdan var eylər.

Şəhriyazın qəlbi deməyin boşdu,
Təbi tüğyan etdi, sinəsi coşdu.
Həyasız üzünə tüpürsən xoşdu,
Nə xəcalət çəkər, nə də ar eylər.

MƏNİ

Sənətin yoluna qədəm qoymamış,
Əlüstü oxladı sitəmkar məni.
Nə günə qalmışam ay əhli dillər,
Görün bəyənməyir saxtakar məni.

Bir sözü demədim ömründə yalan,
Yaxşılıqdır az-çox canımda qalan.
Vaxtında olmadı birbaşa salan,
Kimsə eyləmədi xəbərdar məni.

Şəhriyaz canını oda salmazdı,
Getsəydi üzünə kimsə baxmazdı.
Mənə qalsa məndən heç nə çıxmazdı,
Səmimi[1] eylədi sənətkar məni.

[1] Səmimi – şairin folklorşünas dostu Tacir Səmimi

BU SƏHƏR ÇAĞI

Bir ustad kəlamı düşdü yadıma,
Dağları dolandım bu səhər çağı.
Kövrələ-kövrələ gözlərim doldu,
Odlara qalandım bu səhər çağı.

Çöllərə səs düşdü del nərəsindən,
Keçdim meşələrin yan-yörəsindən.
Təzə çiçəkləmiş gül şirəsindən,
Arı tək yalandım bu səhər çağı.

Şəhriyaz yadına nələri saldı,
Gözləri boşalıb, gözləri doldu.
Başımın üstünü buludlar aldı,
Yağışdan sulandım bu səhər çağı.

NƏVƏLƏR

İxtiyar Sadiqdə, hökm Kənanda,
Evimdə fərmansız xandı nəvələr.
Kimin nə həddi var söz baxmasın,
Bir canın içində candı nəvələr.

Nənəsi öyrəşib tezcə oyana,
Nəvə harda desə orda dayana.
Qoca tarixlərdən üzü bu yana,
Şöhrətdii nəvələr, şandı nəvələr.

Şəhriyaz dinməmiş sözümü kəsər,
Acıqlansan tez inciyər, tez küsər.
Ürəyimdə yazılmamış bir əsər,
Damarımda axan qandı nəvələr.

NƏVƏSİ

Nənənin sevinci dünya qədərdir,
Oynadır əlində güldü nəvəsi.
Dünyanın varını versən istəməz,
Dizinin üstündə ləldi nəvəsi.

Nəvəsi olanlar bilir ki, nədi,
Hər kəlmə sözünü təkrar edəndi.
Gəl nənəyə görüm gəl balam dedi,
Qaçıb qucağına gəldi nəvəsi.

Şəhriyaz təzədən ülfət bağladı,
Sevincindən gecə coşub çağladı.
Bir anda kövrəlib elə ağladı,
Gözünün yaşını sildi nəvəsi.



AYTACIM

Tərifin demirəm, gözəldi, gözəl,
Qaşımın altında gözdü Aytacım.
Hərarəti babasını isidər,
Atəşdi, alovdu, közdü Aytacım.

Bir onu görəsən çörək yeyəndə,
Nazlanır oxşayıb onu öyəndə.
Xalçanın üstündə oyna deyəndə
Əllərin qaldırıb süzdü, Aytacım.

Zakir Şəhriyazı nə hala saldı,
Bütün iztiyarın əlindən aldı.
Dodağı qaymaqdı, yanağı baldı,
Söhbətdi Aytacım, sözdü Aytacım.

KƏNAN

Tanrı fərmanıyla gözəl yaranıb,
Özünü istəfib sevdirən Kənan.
Bədnəzər gözünə görüm gəlməsin,
Özünü istədib sevdirən Kənan.

Gah qucağa çıxar, gah yerə çökər,
Güləndə nənəsi bir ləzzət çəkər.
Babası evini dağıdıb sökər,
Özünü istədib sevdirən Kənan.


Şəhriyazın can içində canıdı,
Saralmış ömrünün şirin anıdı.
Şah, şahzadəsi, Sultan, Xanıdı,
Özünü istədib sevdirən Kənan.

ÖNCƏ

Dərs aldım öyrəndim ustad dərsini,
Oxuyub dərk etdim bilməzdən öncə.
Məclis oldu, susdum söz verilmədi,
Qabağa çıxmadım dinməzdən öncə.

Mən yazıq eyləyim kimə şikayət,
Xəyalım dağları etdi səyahət.
Nə paxıllıq bildim, nə də xəyanət,
Üzü turşutmadım gülməzdən öncə.

Şəhriyazam, ancaq söz ovlamışam,
Binəva başımı qırovlamışam.
Nəfisi, tamahı cilovlamışam,
Adı batırmaram ölməzdən öncə.



ƏVVƏL

Təsdiqə, sübuta ehtiyac yoxdur,
Üç kitab yarandı Qurandan əvvəl.
Ağ libasda idi Şahi-mərdanım,
Görmüşəm yuxudan durandan əvvəl.

Gözəllik verilib gözəl o cana,
Nuru işıq verir gördüm hər yana.
Yahu-yahu deyib girdi meydana,
Çəkib qılıncını vuranda əvvəl.

Şəhriyaz mat qaldı sirri-Xudaya,
Dərya aralanıb döndü adaya.
Mələklər tökülüb gəldi sədaya,
Məhşər məclisini qurandan əvvəl.

ODUR O

İxtiyar ondadır, qüdrət ondadır,
Yer üzünün mədətkarl Odur, O.
Özgə kimim var ki, kimə güvənim,
Bu könlümün şah-Sərdarı Odur, O.

Bəxş etdi insana gözəl bir surət,
İnsan da özüylə etdi fəxarət.
Qanana bəllidi Xaliqi-qüdrət,
Yerin-göyün səbəbkarı Odur, O.


Başı yaxşı saxla, salamat keçin,
Yüz il də yaşasan tutular köçün.
Şəhriyaz, anlayan, dərk edən üçün
Min hikmətin qüdrət-varı Odur, O.

ƏVƏZİ YOXDUR

Surəsi möcüzə, ayəsi hikmət,
İslam Quranının əvəzi yoxdur.
Dünyanı yaradıb bir mizan üstə,
Tanrı fərmanının əvəzi yoxdur.

Bəyənmişəm Yaradanın təqdirin,
Üç min kəlməsindən öyrəndim birin.
Mərhəməti gözəl, əzabı şirin,
Haqqın divanının əvəzi yoxdur.

Şəhriyaz sözlərin şirəsin əmdi,
Bu da bir gedişdi, belə dönəmdi.
"Lövhi-məhfuz"unda yazılıb cəmdi,
Oruc, qurbanının əvəzi yoxdur.



SARI

Görəndə çalxandı təbin dəryası,
Dodaq tamahlandı dodağa sarı.
Qadağan eyləmək olmur sevənə,
Göz baxar buxağa, yanağa sarı.

Sənət gözdən düşər cılız axınan,
Dinləyənlər bezər varı-yoxundan.
Hara gediriksə dönək yaxından,
Yönümü döndərmə uzağa sarı.

Olmuşuq dərdlərin şərbətin içən,
Dünyada qonaqdı dünyadan köçən.
Müşküldə qalmasın qəlbimdən keçən,
Şəhriyazı apar yaylağa sarı.

ELƏ

Sənə demişdim ki, barışıq yarat,
Demədim qardaşı qardaşdan elə.
Qohumun arasın qohumla vurub,
Sirdaşı küyləyib sirdaşdan elə.

İnsafdır üstümə nanəcib gülsün?
Həsrətini çəkib nigaran ölsün.
Mərhəmətin olsun, yazığın gəlsin,
Hayıfam, az məni göz-qaşdan elə.

Deyirsən düşmənsən sən də həsrətə,
Başı qarışdırdın eyşə-işrətə.
Şəhriyazı salma gecə zülmətə,
Sən nə eləyirsən o başdan elə.

XOCALI

Xocalı faciəsinin ildönümünə

Bu nə müsibətdi gəldi başına,
Sinəsi yaralı qalan Xocalı.
Hayını duymadı bu bədbəxt dünya,
Elindən aralı qalan Xocalı.

Gözəl günlərini gör neylədilər,
Adına çox böhtan, şər söylədilər.
Kafirlər birləşib qəsd eylədilər,
Dağıldı düzlərə balan Xocalı.

Şəhriyaz, vaxt gələr haqsızlar susar,
Ədalət onları kəndirdən asar.
Sənə qan udduran özü qan qusar,
Olar qisasını alan Xocalı.

ÖLSÜN

Qarğış eyləmirəm, əlimdən gəlmir,
Hiyləni, nifrəti arayan ölsün.
Qonuma-qonşuya dilin uzadıb,
Qapılarda quyruq bulayan ölsün.

Həyətində qara tikanlar bitsin,
Bəri-bərxanəsi dağılıb getsin.
Həkim tapılmasın bir əlac etsin,
Bizi bəlalara calayan ölsün.

Həcv yazmaq elə bildim sandı,
Şəhriyaz özündən bir az utandı.
Yazıçı olsa da şərdi, böhtandı,
Xortdanyan can versin, Balayan ölsün.

SUAL-SORĞUDAN

Nagüman deyiləm qalım nigaran,
Nə düşündüm dedim onu doğrudan.
Utanası işə başı qoşmadım,
Niyə qorxu çəkim sual-sorğudan.

Bilmədim yanında ağzımı açdım,
Üz-üzə gəəndə quruyub çaşdım.
O məni axtardı, mən ondan qaşdım,
Kənar gəzdim ağıl verən oğrudan.

Şəhriyaz, ürəyin həmən ürəkmiş,
Bu fani dünyada ömür gödəkmiş.
Görən neçə başlar bəlalar çəkmiş,
Yaltağın qurduğu tələ-qurğudan.

QAYDASINDA

Bəzəyi-düzəyi yerində ola,
Üz də gərək ola üz qaydasında.
Görüb sulanmaya göz gördüyünə,
Göz də gərək ola göz qaydasında.

Gedib qoşulmaya ağlı səmayə,
Çağıranda gəlib çata köməyə.
Üzdə bəli, dalda xeyir deməyə,
Düz də gərək ola düz qaydasında.

İnanmıram şair ola baş dura,
Köhlənini dağda-daşda qoşdura.
Şəhriyazın küsmüş təbin coşdura,
Söz də gərək ola söz qaydasında.



OLMUŞAM

Siz mənim günümə baxın, ay ellər,
Başı çənli Kəpəz, Murov olmuşam.
Əl-qolum bağlanıb dustaq kimiyəm,
Köhnə bir zavodda girov olmuşam.

Hərcayilər gəlib dindirə bilməz,
Getdiyim yolumdan döndərə bilməz.
Məni axan sular söndürə bilməz,
Sinəmdən od alıb alov olmuşam.

Şəriyazam, könlü yara gəzirəm,
Ara dincəlirəm, ara gəzirəm.
Axtarıb başımda qara gəzirəm,
Üzü solmuş saçı qırov olmuşam.

EYLƏMİSƏN

Ümid bəsləmişdim sənə bir zaman,
Bütün ümidimi heç eyləmisən.
Anlaya bilmədim dünya tamını,
Ömrünü-gününü puç eyləmisən.

Bir söhbəti belə niyə uzatdın?
"Tərifli" adına nifrət oyatdın.
Əxlaq deyə-deyə günaha batdın,
Bilirəm nə qədər suç eyləmisən.

Şəhriyazı görüb buxarlanırsan,
Bəyin yengəsi tək tumarlanırsan.
Qəflət yuxusunda xumarlanırsan,
Ayılıb görərsən köç eyləmisən.

YOXUYMUŞ

Mən ümid bağladım ona, sən demə,
Dilinin qaytanı, bağı yoxuymuş.
Anladım sonradan gördüm mən bunun,
Qəlbinin şirəsi, yağı yoxuymuş.

Nəyinə gərəkdir coşub çağlasın,
Kiminlə danışsın, kimlə ağlasın.
Neynirəm ki, çöldə basıb bağlasın,
Evə gələn bir qonağı yoxuymuş.

Şəhriyazın çox yanından ötsə də,
Mərifəti olmaz hara getsə də.
Belə adam ziyarətə getsə də,
Adamlığı, qanacağı yoxuymuş.

MƏN YAZAN OLDUM

Şair dostum Əhliyyətə

Şair dostum məni yaman tərpətdi,
Əhliyyət danlayan, mən yazan oldum.
Səsim gəlməyəndə durub zəng etdi,
Əhliyyət danlayan, mən yazan oldum.

Sənətin yolları eniş-yoxuşdu,
Huşum da elə bil paslanmış huşdu.
Təzə nə yazmısan deyib soruşdu,
Əhliyyət danlayan, mən yazan oldum.

Kimsə bilməz dostum nələr söylədi,
Görəndə qolumdan tutub əylədi.
Dinmədim o ki var tənbeh eylədi,
Əhliyyət danlayan, mən yazan oldum.

Bilmədim başımı mən hara qoyum,
Günlərin bir günü tutuldu toyum.
Danladı o qədər süzüldü suyum,
Əhliyyət danlayan, mən yazan oldum.

Şəhriyaz, sözlərdən qala tikəsən,
Bu yemək deyil ki, üstə çökəsən.
Ya gərək yazasan, ya əl çəkəsən,
Əhliyyət danlayan, mən yazan oldum.

QƏZETİSƏN

“Vedibasar” qəzetinin
yüzüncü sayının çıxması münasibəti ilə

Bir mahalın adın sənə veriblər,
Yaralı canımın öz qəzetisən.
Yalandan aralı, hiylədən uzaq,
Həqiqət yolçusu, düz qəzetisən.

Yurdsuz nə gündəyəm, bir mənə baxın,
Qəmim qoşun olub gəlir bir axın.
Qəlbimə həmdəmsən, könlümə yaxın,
Üzə yaraşıqsan, üz qəzetisən.

Mənimlə düz gəlmir indiki həyat,
Başı gəzdirirəm özüm bir babat.
Şəhriyazı yaşadırsan sən yaşat,
Hər vərəqi dürlü, söz qəzetisən.

GƏLİR

Bu dünyaya sığışmayan ürəyim,
Axır vaxtlar mənə yaman güc gəlir.
Dərdlərim qapıda durub növbəyə,
Sevincim nədənsə gəlir gec gəlir.

Öyrəşmişik haqq yoluna baş əyək,
Əlimizə düşənləri bir yeyək.
Kimə ağız açaq, kimə nə deyək,
İnsanlar bicləşib zaman bic gəlir.

Şəhriyaza çoxdur indi hürənlər,
Əcnəbi atını minib sürənlər.
Elə yeri, şair, səni görənlər,
Deməsinlər budur gəlir gic gəlir.

YORULMAZ

Gözəl var bəyənməz özgə gözəli,
Öz başına dolanmaqdan yorulmaz.
Baxışı yıxsa da bütün aləmi,
Göz başına dolanmaqdan yorulmaz.

Üzü qızartmayaıb demərəm yalan,
Canı verən alar məndən can alan.
Dili şirin olan, əli düz olan,
Düz başıma dolanmaqdan yorulmaz.

Şəhriyazı yurd həsrəti sızladar,
Kimim var ki mənə olsun havadar.
Qadasın aldığım əsl sənətkar,
Söz başına dolanmaqdan yorulmaz.

GÖZƏ GÖRÜNƏN

Dağlara boylandı yorğun gözlərim,
Baxıb gördüm qardı gözə görünən.
Dünya şirinliyi yaman aldadıb,
Çoxu bilir vardı gözə görünən.

Dilimdən çıxana yalandı demə,
İnsafa gəl, məni yazıq eləmə.
Könülmdən keçəni desəm incimə,
Sinəndəki nardı gözə görünən.

Şəhriyaz gül kimi solub xallandı,
Aldanmışdı, bu gün yenə aldanı.
Uzaqdan bir pəri durub sallandı,
Elə bildim yardı gözə görünən.

VAXTINDA

Mənə çox dedilər, mən eşitmədim,
Ləli misdən seçəmmədim vaxtında.
Çayım qabağımda qalıb buz oldu,
Baş qarışdı, içəmmədim vaxtında.

Gözlərim öyrəşib boşalıb dola,
Dərdlə dayanmışam, dərdlə qol-qola.
Yönümü saldılar tilsimli yola,
Cəhd eylədim, keçəmmədim vaxtında.

Şəhriyazam, canı yesir edərdim,
Bu dünyadan nə almışdım, nə verdim.
Zəhmət çəkib əllərimlə becrdim,
Zəmim soldu, biçəmmədim vaxtında.

ÜSTÜNDƏ MƏN

Ayağım tutandan zülmlər gördüm,
Bəslənib qalmadım göz üstündə mən.
Canımı çöllərdə yesir eylədim,
Çöküb oturmadım diz üstündə mən.

Əqidəsi safı mən necə danım,
Düz deməsəm qoy qurulsun divanım.
Hiyləgər üzündən bezibdir canım,
Divanə olmuşam düz üstündə mən.

Şəhriyaz, öz adı sənə yaraşır,
Sinənin bulağı axıb qaynaşır.
Gündüz dost-tanışa başın qarışır,
Gecələr yanıram söz üstündə mən.

ÖTƏRİ

Gecə-gündüz dinləməkdən doymuram,
Sızlayıram telli sazdan ötəri.
Qışın soyuğunda bədənim dolur,
Ürəyim çırpınır yazdan ötəri.

Yamanlıq bizlərə aman vermədi,
Xəyanət barmağın gözə dirədi.
Kor olmuş gözlərim niyə görmədi?
Birdən tamahlandım nazdan ötəri.

Özün bir mələksən qurban olası,
Dilin şəkər, yanaq dağın lalası.
Bəs niyə demirsən zalım balası,
Darıxıram Şəhriyazdan ötəri.



HAYIFIM GƏLİR

Ay Əhliyyət, sən qulaq as, mən deyim,
Dağların düzünə hayıfım gəlir.
Dönə-dönə bal suyundan içdiyin
Bulağın gözünə hayıfım gəlir.

Bəxtimizin qara çırağı sönmüş,
Fələyin bu çərxi tərsinə dönmüş.
Neçə illərdi ki, yumağa dönmüş
Qocalar üzünə hayıfım gəlir.

Şəhriyaz sevinməz bir söz atanda,
İnsanlar neyləsin bəxti yatanda.
Ət satan da yazır, qarpız satan da,
Sənətkar sözünə hayıfım gəlir.

GƏTİRMİŞƏM

Ay ellər, sizinlə şirin görüşə,
Gözlərimdə dolu yaş gətirmişəm.
Canın ağrıları mənə güc gəlib,
Deməyin ürəyi daş gətirmişəm.

Qolumda güc yoxdur, dizimdə taqət,
Nə görsəm başında qopur qiyamət,
Gənclikdən qalmayıb əsər-əlamət,
Əllini adlayan yaş gətirmişəm.

Zatı qırıq oxşar əsrin doyuna,
Bizə qarğadılar, düşdük oyuna.
Zakir Şəhriyazam, bir el toyuma,
Həsrətdən ağartmış baş gətirmişəm.

TÖHFƏSİDİR

Gəlmişəm yanaına ay ustad, dillən,
Könül açan söhbət dil töhfsidir.
İnkar eyləmirəm illərdən bəri,
Bayram hədiyyəsi gül töhfsidir.

Qəlbimə nə gəldi, gəldi qüdrətdən,
Mrifət öyrəndim şahi-xilqətdən.
İncimə, usanma, küsmə zəhmətdən,
Zəhmətin bəhrəsi əl töhfəsidir.

Şəhriyazın həqiqətdir məramı,
Ağıza dad verər süfrə təamı.
Qocalıq ömürün hikmət məqamı,
Saçın ağarması il töhfəsidir.



DAĞLARI

Dağların yanında üz qarayam,
Oxşaya bilmirəm hələ dağları.
Könlüm həsrət qalıb el qalan kimi,
Mən necə tapşırım elə dağları.

İllər keçib, dərdim olub bir ətək,
Yadımdan çıxmayır gördüyüm istək.
Ana balasını əzizləyən tək,
Belə əzizlədim belə dağları.

Əzəldən işlərim düz gətirmədi,
Ocağım tez söndü köz gətirmədi.
Şəhriyazam, təbim söz gətirmədi,
Söz gəlsə tutardım lələ dağları.

QOYMAYA

İnsan olan ariflərə baş əyə,
Nadanın başına tacı qoymaya.
Sözünü dinləyən bir mətləb qana,
Dilinin üstünə acı qoymaya.

Qayğı göstər oğul, səni sayana,
Sevincinlə, kədərini duyana.
Bədbəxt o kəsdir ki, qohum bir yana,
Evinə gedəndə bacı qoymaya.

Şəhriyaz, düz olar söhbət bir kərə,
Əl də gözəl olar ələ əl verə.
Vay o günə hüzür olan bir yerə,
Axundu, mollanı, hacı qoymaya.

DƏRƏLƏYƏZDƏ


Könlüm sözü tutdu, ürəyim sazı,
İsindim köz ilə Dərələyəzdə.
Böyüyün, kiçiyin yerini bildim,
Utandım üz ilə Dərələyəzdə.

Yaylaqlar qoynunda açdım sabahı,
Bilə-bilə eyləmədim günahı.
Məni aldatmadı dünya tamahı,
Düz oldum düz ilə Dərələyəzdə.

Şəhriyaz dağlara yaman həsrətdi,
Ürəyini üzən niskil, möhnətdi.
Məhəbbətin odu məni tərpətdi,
Vuruldum göz ilə Dərələyəzdə.



QOŞA QAFİYƏLİ QOŞMALAR



BELƏ QALMAZ

Xəlq olunan qətrə-qətrə puç olar,
Dodaq belə qalmaz, dil belə qalmaz.
Yorulmaq bilməyən bədən yorular,
Ayaq belə qalmaz, əl belə qalmaz.

İlahi qüdrəti lalı dindirər,
Təpəni qaldırar, dağı endirər.
Atəşi-alovu zaman söndürər,
Ocaq belə qalmaz, kül belə qalmaz.

Şəhriyaz, ömrümüz oldu amanat,
Şükürdən əl çəkmə, eylə salavat.
Qərarını versə pozular həyat,
Bulaq belə qalmaz, gül belə qalmaz.

SƏNSƏN

Sənsiz bu dünyda mənim kimim var,
Ocağım da sənsən, daşım da sənsən.
Boşalar ürəyim ağlaya bilsəm,
Yanağım da sənsən, yaşım da sənsən.

Niyə düz deməyim, çıxsın yalanım?
Sən istə yanında gəlib dolanım.
Quruca bədəndi məndə olanım,
Ayağım da sənsən, başım da sənsən.

Şəhriyaza bəsdir təmiz ürəyim,
Baldan şirin olar yavan çörəyin.
İstəmirəm başqasının xörəyin,
Qaymağım da sənsən, aşım da sənsən.

ONUNLA

Yanıb tökülürəm illərdən bəri,
Ləl oynadıb, dür gəzərdim onunla.
Ayrılandan oldum dəli, sərsəri,
Gül oynadıb, bir gəzərdim onunla.

Qardaşını götürərdi beşikdən,
Qorunardıq kəmağıldan, düşükdən.
Gizlincə qaçardıq evdən-eşikdən,
Tel oynadıb, zər gəzərdim onunla.

Bizim üçün dünya oldu oyuncaq,
Bir vaxt Leyli idi, mən Məcnunsayaq.
Şəhriyazam qaçıb biz gözdən uzaq,
Əl oynadıb, yer gəzərdim onunla.



KƏM BAXIR

Sən bunun halına, gününə bir bax,
Yanağı bəyənmir, telə kəm baxır.
Oturduğu yerdən tərpənə bilmir,
Ayağı bəyənmir, ələ kəm baxır.

Yemi kəsir olub, bir az sınıxıb,
Baxanda gözləri neçə ev yıxıb.
Şəhərə gələndən kənd yaddan çıxıb,
Yaylağı bəyənmir, çölə kəm baxır.

Şəhriyaz olmayıb tez-tez dillənən,
Özgə kölgəsində yatıb küllənən.
Elin çörəyini yeyib şellənən,
Ocağı bəyənmir, elə kəm baxır.

YAZA-YAZA

Gördüyüm çəmənlər görən necədir?
Çöl yadıma düşür düz yaza-yaza.
Bədənin ağrısı cana güc gəlir,
Əl yadıma düşür diz yaza-yaza.

Gərək öz yerimi bilib sayılım,
Adım dilə düşsün elə yayılım.
Qəflət yuxusundan necə ayılım?
Tel yadıma düşür üz yaza-yaza.

Şəhriyazam, din-imanım qalmayıb,
Damarımda donub qanım qalmayıb.
Daha əriyəsi canım qalmayıb,
Göl yadıma düşür söz yaza-yaza.

ƏVƏZİMƏ

O yerlərim gəlib yada düşəndə,
Üznən danışasan gül əvəzinə.
Durasan bir anda qarşı-qarşıya,
Göznən danışasan tel əvəzinə.

Bu həsrətdən görən bizə nə gəlib,
Niyyətimiz qara daşa dirənib.
Hərdən sevinəsən hərdən kövrəlib,
Düznən danışasan çöl əvəzinə.

Şəhriyaz laxlayıb ömrünün himi,
Astaca tərpənsin könlünün simi.
Körpə anasına sarışan kimi,
Söznən danışasan el əvəzinə.

HAYIF OLDU

İllər boyu yol gözləyən ay ellər,
Bulaq hayıf oldu, çöl hayıf oldu.
Divanə dolanıb başa döyməkdən,
Ayaq hayıf oldu, əl hayıf oldu.

Tilsimə düşübdür ömrün murazı,
Dağların gülləri eyləmir nazı.
Şirin söhbətlərə qaldı tamarzı,
Dodaq hayıf oldu, dil hayıf oldu.

Şəhriyaz, tələşın necə tələşdı?
Dədələrin ruhu orda dolaşdı.
Gördüyüm o saçlar tez bəyazlaşdı,
Daraq hayıf oldu, tel hayıf oldu.

AYRI ŞEYDİ

Hər şeyi qatmayaq biri-birinə,
Ayaq ayrı şeydi, baş ayrı şeydi.
Görünəni düz qoyaq düz yerinə,
Ocaq ayrı şeydi, daş ayrı şeydi.

Hicran bizi yandırandı, yaxandı,
Sevincimiz uzaqlardan baxandı.
Biri görünəndi, biri axandı,
Yanaq ayrı şeydi, yaş ayrı şeydi.

Şəhriyaz, isməti çölə atmayaq,
Ət tökən sözləri elə satmayaq.
Dərindən düşünüb qoşa tutmayaq,
Dodaq ayrı şeydi, qaş ayrı şeydi.

KÜSƏR

İnsan xarab olsa, nadürüst olsa,
Üz xəcalət çəkər, əl-əldən küsər.
Küçədə bayırda görən utanar,
Göz xəcalət çəkər, tel-teldən küsər.

Qanmayan bir kimsə özgə qandırar,
Atəşsiz, alovsuz adam yandırar.
Naxələf, atamı tez utandırar,
Düz xəcalət çəkər, dil-dildən küsər.

Gül də xoşa gəlməz saralıb solsa,
Dərdli heç kiriməz ürəyi dolsa.
Şəhriyaz ədəbli ədəbsiz olsa,
Söz xəcalət çəkər, el-eldən küsər.

AYDININ

Ürəyimi silkələyib tərpətdi,
Söhbəti Aydının, sözü Aydının.
Vallah neyləsəm də yadımdan çıxmır,
Ülfəti Aydının, özü Aydının.

Baş əymişdi, başın saza əyirdi,
Sözlərini həzin-həzin deyərdi.
Bir baxışı nəyə desən dəyərdi,
İsməti Aydının, üzü Aydının.

Kim bilir bu dünya necə olacaq?
Allah verdiyini yəqin alacaq.
Şəhriyazın yaddaşında qalacaq,
Sənəti Aydının, izi Aydının.



CIĞALI QOŞMALAR



GƏLƏR-GƏLƏR

Hikmət dəryasında könlü üzdürsən,
Görərsən toruna ləl gələr-gələr.
Mən demişəm bir gilə,
Əl yetişə bir ələ.
Yar dayana göz-gözə,
Bir danışa, bir gülə.
Yadından çıxmaya o vədələrin,
Xatirinə gələr gül gələr-gələr.

Yazda gözəlləşərə dağın sinəsi,
Coşar bülbüllərin köksü qəfəsi.
Mən demişəm bir qəfəs,
Ola səndə bir həvəs.
Qocalıq başlananda,
Belə gələ bir nəfəs.
Yaş keçər sökülər ömrün binəsi,
Ayların dalınca il gələr-gələr.

Şəhriyaz, dərdinlə gəl az didiş sən,
Gəl deyənin hrayına yetiş sən.
Mən demişəm var səni,
Qorxutmasın qar səni.
Könlümə həmdəm olan,
Yar deyiblər, yar səni.
Allah göstərməsin bir dara düşsən,
Sənin harayına el gələr-gələr.

HA BUNU YAZDI

Könül yesir oldu qəm sarayında,
Tanrı qismətimə ha bunu yazdı.
Mən dedim bunu yazdı,
Çox verdim dedi azdı.
Biz necə uyğunlaşaq,
Baş yox ağlı dayazdı.
Hikmət sahibiylə durdum yan-yana,
Abır-ismətimə ha bunu yazdı.

Hərdən təbim coşdu, hərdən kiridi,
Üzlər gördü şama dönüb əridi.
Mən demişəm kiriyə,
Başım dönməz geriyə.
Ayaqlarım öyrəşib,
Asta-asta yeriyə.
Ustad ətəyindən tutub yeridim,
Könül hikmətimə ha bunu yazdı.

Şəhrayazam ağlım azacıq çaşdı,
Dil xəta eylədi gözlə savaşdı.
Mən demişəm savaşda,
Ağıl hanı bu başda.
İllər xəbərsiz keçir,
Can əriyir bu yaşda.
Cəmi cəmə qatdı cəm qoşalaşdı,
Sənət qiymətimə ha bunu yazdı.

ÜSTƏ BİR-BİR

Çəmən gözəlləşib, gül ətirlənib,
Arı məskən salıb gül üstə bir-bir.
Mən dedim gülə bir-bir,
Əl dəyə gülə bir-bir.
Açam sərraf bazarın,
Alanlar gələ bir-bir.
Gözəlin nazlanan vədəsi gəlib,
Əllər xumarlanır tel üstə bir-bir.

Canı yanmış baxın görün neyləyir,
Gedəni yolundan tutub əyləyir.
Mən dedim gör neylədi,
Nə dedi nə söylədi.
Könül gül bağın gördü,
Gül ətrini iylədi.
Eşidəni var-yoxundan eyləyir,
Kəlmələr süzülür dil üstə bir-bir.

Şəhriyaz kağızda söz sıralanıb,
Gedənin dalınca göz sıralanıb.
Mən dedim sırasında,
Gözlərin qarasında.
Namərdə yer qalmasın,
Düzlə-düz arasında.
Tanrı qanunları düz sıralanıb,
Aylar tamamlanır il üstə bir-bir.

BİR ÜZDƏN

Könül havalanıb necə coşmasın,
Bir abırlı, bir həyalı bir üzdən.
Mən demişəm bir üzdən,
Dərdlənirəm bir üzdən.
Ömrüm belə yazılıb,
Əriyirəm bir üzdən.
Cavanlıq qədrini heyif bilmədim,
Qara saçlar hey ağarır bir üzdən.

Göz görmədi qulaq səsə allandı,
Adım düşüb dildə-dişdə hallandı.
Mən demişəm allana,
Gülün köksü xallana.
Təbin səndən küsməyə,
Sinə varın ballana.
Ağız dadım şirələndi ballandı,
Bir qatıqdan, bir qaymaqdan, bir üzdən.

Şəhriyazam, hər əzaba dözmüşəm,
Düz dalınca hər məkanı gəzmişəm.
Mən demişəm dözmüşəm,
Göz göräni süzmüşəm.
Can əziyyət görsə də,
Heç demərəm bezmişəm.
Sənət ümmanında az-çox üzmüşəm,
Bir dərindən, bir dayazdan, bir üzdən.

İNDİ

Haqq mənim payımı verib qüdrətdən,
Müşkülü-zəlilə dayağam indi.
Mən demişəm bir dayaq,
Hər sözü necə duyaq.
Cavanlıqda çöl gəzdik,
Qocalıqda gün sayaq.
Qəflət yuxusuna qapılmamışam,
Yatmamışam hələ oyağam indi.

Həqiqət gülünü pünhan dərmişəm,
Pirlər qabağında baş endirmişəm.
Mən demişəm dərmişəm,
Azdan-çoxdan görmüşəm.
İllərim tez ötüşüb,
Günü yelə vermişəm.
Küllü kainatdan üz döndərmişəm,
Divanəyəm Məcnun sayağam indi.

Şəhriyaz qurbandır min bir adına,
Tezcə sən çatasan məzlum dadına.
Mən demişəm adına,
Yandım eşqin oduna.
Könlüm nə xatırladı,
Nələr gəldi yadıma.
Dünyada yanmayım məhşər oduna,
Köməyimə çatsın bir ağam indi.

İNCƏ-İNCƏ


Zəncirləmə cığalı qoşma

İncə zülfü gözəl əsir eyləmə,
Tökülsün gərdənə tel incə-incə.
Mən demişəm az incə,
İşvə incə, naz incə.
Götür ələ qələmi,
Oxu incə, yaz incə.
Sözlərin dodaqdan süzülüb gəlsin,
Danış incə-incə, gül incə-incə.

İncəlidən olan söz incələsin,
İncədən danışsın, incədən desin.
Mən dedim incəsinə,
Ağ buxaq, incə sinə.
Könlümün quşu qondu,
Qazağın İncəsinə.
Gəlişin könlümü bir təzələsin,
Hərdən biz tərəfə gəl incə-incə.

İncə könül olar incədən təzə,
İnci tər yaraşar inci tər üzə.
Mən demişəm bir üzə,
Kaman biz üzə,
Bəd nəzərdən qorunsun,
Heç gəlməsin bir gözə.
Şəhriyaz, kəlməni incədən bəzə,
Heyran olsun sənə el incə-incə.

TƏƏSSÜFNAMƏLƏR



ƏLİMNƏN

Çox dedilər inadımdan dönmədim,
Öz evimi özüm yıxdım əlimnən.
Ağlımın, huşumun qədrin bilmədim,
Öz evimi özüm yıxdım əlimnən.

Yapışmadım nə dövlətdən, nə vardan,
Qurtarmadım çətinlikdən, bu dardan.
Axtarmıram günahkarı kənardan,
Öz evimi özüm yıxdım əlimnən.

Niyə gileylənim mən niyə nədən?
Ağrılar güc gəlir sızlayır bədən.
Şikayətim yoxdur bircə kimsədən,
Öz evimi özüm yıxdım əlimnən.

Mənə nə gəldisə sözümdən gəldi,
Yediyim-içdiyim gözümdən gəldi.
Başıma gələnlər özümdən gəldi,
Öz evimi özüm yıxdım əlimnən.

Şəhriyaz, gözümdə puç oldu dövran,
İlin il olmadı, günün firəvan.
Bağışlasın məni Sahibi-Zaman,
Öz evimi özüm yıxdım əlimnən.

BEŞBARMAĞIN PİRİNƏ

Xəcalət çəkərsən utandığından,
Heç baxmaram axıtdığın tərinə.
Dilini ağzında buxovluyaram,
Oxşadaram filankəsin ərinə.

Sənətkaram yaxşı sözü güdərəm,
Arxasınca hara gəlsə gedərəm.
Səni söküb "qayka", "şurup" edərəm,
Havalanıb çox da getmə dərinə.

Zəhər qatma Şəhriyazın çayına,
Bənzədərəm dilbilməzin tayına.
Axundlar, mollalar çatmaz hayına,
Dırmaşarsan "Beşbarmağ"ın pirinə.

KİMİ

Sən yerində yaman dibgildəyirsən,
Təzəcə gəlinin yengəsi kimi.
Qarnını piy basıb fısıldayırsan,
Köhnə hökümətin cöngəsi kimi.

Uyubsan tərifə keyfindən gəlir,
Ağlına nə gəlir bir az kəm gəlir.
Əllərin xörəyə elə həm gəlir,
Acımış aslanın pəncəsi kimi.

Sənətkarı görüb dodaq büzürsən,
Sənət ümmanında guya üzürsən.
Şəhriyazın arxasınca gəzirsən,
Qaraca buludun kölgəsi kimi.

QARIŞDIRMIŞIQ

Zəmanə insanı dəyişdirərmiş,
Qaranı ağ ilə qarışdırmışıq.
Ağzımızın gedib tamı ləzzəti,
Ayranı yağ ilə qarışdırmışıq.

Nanəcibə baş qoşmağa üz gəlmir,
Danışanda dil tutulur söz gəlmir.
Əkdiyimiz, dərdiyimiz düz gəlmir,
Bostanı bağ ilə qarışdırmışıq.

Şəhriyazı əli çatan aldadıb,
Oyanan aldadır, yatan aldadır.
Bizləri gör necə şeytan aldadıb,
Aranı dağ ilə qarışdırmışıq.



SƏNİ

Nəsiyət eylədi düz yola çəkdi,
Pirani kişilər dədələr səni.
Zamanın yalançı küyünə düşdün,
Aldatdı boş güman vədələr səni.

Aşkarda iş ilə özünü yorur,
Gizlində dayanıb boynunu burur.
Danışanda mərifətdən dəm vurur,
Arxanca dayanıb hədələr səni.

Söz yolunda oldu lələ Şəhriyaz,
Hələ nə yazıb ki, hələ Şəhriyaz.
Canını az həlak elə Şəhriyaz,
Qorxuram daraşıb didələr səni.

SEÇDİLƏR

Həyalı simalar görünməz oldu,
Həyasızlar daşı-qaşı seçdilər.
Möhtərəm adıyla möhtərəm yerə,
Dili pəltək, gözü çaşı seçdilər.

Pünhanı işlərin çıxdı əngəli,
Getdilər qapıya yanı cöngəli.
Axşam yeməyinə gürcü xəngəli,
Səhər yeməyinə xaşı seçdilər.

Şəhriyaz, lal olub dillər, o dillər,
Yamanca tez ötdü illər, o illər.
Nə günə qalmışıq ellər, ay ellər,
Məclisə qapazlı başı seçdilər.

SATDILAR

Sinəsinə döyən mənəm deyəni,
Başını piyləyib kola aldılar.
Tülkünü meşəyə rəis qoydular,
Qırğının dalınca tula saldılar.

Kəlmələr dolaşır dil-dodağında,
Qızartı görünür üz yanağında.
Gözün görə-görə göz qabağında,
Neçə boyunları qola saldılar.

Şəhriyaz, sənə də bir daş atdılar,
Elə bilmə gedib sakit yatdılar.
Qabağa çıxanı daldan tutdular,
Qolundan yapışıb yola saldılar.



EYLƏDİLƏR

Namərd qonşuların evi dağılsın,
Gözünün yaşını çay eylədilər.
Ərköyün uşaq tək düşüb ortaya,
Özlərin meymuna tay eylədilər.

Əllərində olan varları getdi,
Əkib-becərdiyi barları getdi.
Torpaq deyə-deyə arları getdi,
Canların özgəyə pay eylədilər.

Şəhiyazın işi olmaz qarğışla,
Günün keçirərdi payızla-qışla.
Yaxşı dolanırıq dostla-tanışla,
Bu gözəl dünyanı zay eylədilər.

GƏLMƏZSƏN

Lovğalanma nadan adam yanında,
Gözlərdən düşərsən dilə gəlmərsən.
Dəli kimi uşaq qaçar dalınca,
Utanarsan evdən çölə gəlməzsən.

Meymunlar oynaşar yanı-yörəndə,
Xəcalət çəkərsən salm verəndə.
Mənim kimi sənətkarı görəndə,
Kənardan keçərsən belə gəlməzsən.

Elə bilmə gecəgündüz yataram,
Danışdırıb mal başını qataram.
Şəhriyazam, sənə bir toy tutaram,
Sökülər, tökülər ələ gəlməzsən.

YERİ

Elmin kölgəsində gizlənən "alim",
Çətinə düşəndə bacar döz yeri.
Ustad süfrəsinə əlini atma,
Sənin öz yerin var, onun öz yeri.

Səndən yüzü ola dayana birgə,
Elə sənətkara salammaz kölgə.
Sənət meydanında girişmə cəngə,
Tərpənsən sinəndə qalar diz yeri.

Şəhriyaz dillənsə ağlarsan zar-zar,
Axtarsan tapılmaz sənə havadar.
Yükün yüngül gələr yığsan nəyin var,
Yolu dəyişmisən yeri düz yeri.

SÖZ DƏRYASINDA

Heyif oldu mənə naxələf çıxdı,
Üz dürərdim onu söz dəryasında.
Yanımda aparıb o vaxt o vədə,
Gəzdirərdim onu söz dəryasında.

Yanında olardım nə vaxt deməydi,
Əli yellədərdim əl eyləməydi.
Özü istəmədi o istəməydi,
Süzdürərdim onu söz dəryasında.

Şəhriyaz coşardı cövlan edəndə,
Onun dediyinə divan edəndə.
Arada bir təbib tüğyan edəndə,
Bezdirərdim onu söz dəryasında.



HAYIF

Şərəfsiz kişinin başın bəzəyib,
Kişi cərgəsinə qoşmuşam hayıf.
Yanımca gəzdirib nazın çəkmişəm,
Bilmədən həddimi aşmışam hayıf.

Dılğır bir gədəni saldı üstümə,
İkisi birləşib durdu qəstimə.
Görən yanıb başdan çıxan tüstümə,
Dil-dodaq dolaşıb çaşmışam hayıf.

Şəhriyazam, su keçməzdi aradan,
Kim kim qarğadı bəla gəldi haradan.
Günahımı bağışlasın yaradan,
Əyyaşlar yanında coşmuşam hayıf.



SƏN DƏ

Həvəsə gəlmisən a şeir yazan,
Arabir məclisdə göründün sən də.
Eşitdim sən elə düşdün gözümdən,
Köhnə zibil kimi küründün sən də.

Boş başın nə qədər olsa qar kimi,
Sinənə yığılan olmaz var kimi.
Görüntü yaratdın sənətkar kimi,
Sənətkar dalınca süründün sən də.

Şəhriyaz qəlbində sözü becərdi,
Nə könlü ovundu, nə bir dincəldi.
Nəfsin ağlın sənə elə güc gəldi,
Tülkü libasına büründün sən də.

USTAD OLAN EL BAŞINA DOLANAR



ƏLƏSGƏR KİMİ

Ustad qabağında baş endirəsən,
Sənətkar olasan Ələgər kimi.
Pirlərin könlünü sevidirəsən,
Sənətkar olasan Ələgər kimi.

Namərd məclisində görünməyəsən,
Mənəm, mənəm deyib öyünməyəsən.
Özgəsi dalınca sürünməyəsən,
Sənətkar olasan Ələgər kimi.

Arif qiymət qoya düz əməlinə,
Könlün vurğun ola hikmət gülünə.
Bir tərif deyəsən el gözəlinə,
Sənətkar olasan Ələgər kimi.

Hikmət söhbətini doğru qurasan,
Şeytan azdırıb yolda yorasan.
Elnən oturasan, elnən durasan,
Sənətkar olasan Ələgər kimi.

Şəhriyaz, şər neylər bürcü-qalana,
Qafil dilin öyrəşməyə yalana.
Qəlbin haqqa tərəf doğru dolana,
Sənətkar olasan Ələgər kimi.

SƏNƏTKAR

Bozalqanlı Aşıq Ələsgərə

Özün aşıq, adın ustad adıdır,
Gül axtaran sənətkarsan, sənətkar.
Dəryaların, ümmanların içindən,
Ləl axtaran sənətkarsan, sənətkar.

Bir aləm var sənin şövqü-şəstində,
Can alan tək durdun canlar qəsdində.
Telli sazın pərdəsinin üstündə,
Zil axtaran sənətkarsan, sənətkar.

Ələsgər, olsa da dünya qarışıq,
Məclislərə yaraşıqsan, yaraşıq.
Mən Şəhriyaz, sən ustadsan, ay aşıq,
El axtaran sənətkarsan, sənətkar

AY PİRSULTANLI

S.P.Pirsultanlının səksən illiyinə

Bir görüşdə gördüm sənin başında,
Ağaran tellərmiş, ay Pirsultanlı.
Ləli ləl eyləyən coşqun təbdisə,
Danışan dillərmiş, ay Pirsultanlı.

Nə deyək, zaman da belə zamanmış,
Düşüncəm dağınıq, halım yamanmış.
Ağrıyan ürəkmiş, sızlayan canmış,
Titrəyən əllərmiş, ay Pirsultanlı.

Şəhriyaza dayan, gözdə, deyəsən,
Kəlmələri yaxşı üzdə deyəsən.
Hələ səksən nədir yüzdə deyəsən,
Ötüşən illərmiş, ay Pirsultanlı.



ÜÇÜN

İsrafil Abbaslının yetmiş üç illiyinə

Yaxşı söhbət könül açar, göz oxşar,
Bülbül şövqə gəlib ötər gül üçün.
Ağıl-kamal insanların sərvəti,
Ədəb-ərkan yaraşıqlı dil üçün.

Vətənimi qarış-qarış dolandın,
Gəncliyi xərcləyib gözəl qocaldın.
Yaddaşlardan inci üzdün, dür aldın,
Yorulmadın folklor adlı ləl üçün.

Şəhriyaz unudub sən elə bilmə,
Şəninə söz yazıb bir neçə kəlmə.
Şərəfli ömrünü bağlayıb elmə,
Yetmiş üçü əritmisən el üçün.



QALIB

Əhliyyət Məmmədlinin yetmiş illiyi ərəfəsində

Sən kövrəksən, mən də kövrək sənətkar,
Elə demə yetmişinə az qalıb.
Yaman günə qoyma məni sən Allah,
Qarşımızda gül-çiçəkli yaz qalıb.

Bizə ox lazımdır sənin bildiyin,
Sinəndəkin hərdən aşkar etdiyin.
Bəzək vurub tərifini dediyin,
Gözəllərdə işvə qalıb, naz qalıb.

Şəhriyazda dözüm yoxdur bir tikə,
İnsafdırmı şair dostun dərd çəkə.
Aşıq Əli hazırlaşır təbrikə,
Qoltuğunda çalınmamış saz qalıb.



AY ŞAİR KƏRƏM

Kərəm Kürqıraxlının altmış illiyinə

Yaradana şükür, yenə min şükür,
Altmışı da gördün ay şair Kərəm.
Bu qoca dünyadan özün bilirsən,
Nə aldın, nə verdin, ay şair Kərəm.

Haqqın badəsini əlinlə içain,
Sənət zəmisini təbinlə biçdin.
Qanqalın yanından dolanıb keçdin,
Ətirli gül dərdin, ay şair Kərəm.

Şəhriyaz əyrilər düzü kor qoydu,
Başı çıxmayanlar gözü kor qoydu.
Hər yerindən duran sözü kor qoydu,
Sən lələ döndərdin, ay şair Kərəm.



KÜRQIRAXLI TƏK

Kərəm Kürqıraxlıya

Könül coşa gəl, təbin qaynaya,
Gülü bəzəyəsən Kürqıraxlıtək.
Muncuq tək düzülə kağıza sözlər,
Teli bəzəyəsən Kürqıraxlı tək.

Demirəm üstünə gələ qəm çökə,
Hicran cəhd etməyə boynunu bükə.
Günlərin xoş keçə, ayın naz çəkə.
İli bəzəyəsən Kürqıraxlı tək.

Yaxşı başa düşə insan-insanı,
Unutmaya doğru yolu, ərkanı.
Sinən ola dürlü gövhər məkanı,
Ləli bəzəyəsən Kürqıraxlı tək.

Can deyən gözəlin dərdin alasan,
Gözləri dolanda sən də dolasan.
Şəhriyaz olanda elnən olasan,
Eli bəzəyəsən Kürqıraxlı tək.

MƏN KƏRƏM KİMİ

Kərəm Kürqıraxlıya

Ala-babat bir az təbim olardı,
İlə il deyərdim, mən Kərəm kimi.
Şeyda bülbül kimi çəkərdim nazın,
Gülə gül deyərdim, mən Kərəm kimi.

Məlhəm eyləyərdim dost yarasına,
Üzü ağ çıxardım el arasına.
Qaşı bənzədərdim ay parasına,
Telə tel deyərdim, mən Kərəm kimi.

İstəmirəm təmənnalı tacları,
Yaxına qoymaram gözü acları.
Xəyalım gəzərdi yol-yamacları,
Çölə çöl deyərdim, mən Kərəm kimi.

Şəhriyaz baxmazdı boran bürküyə,
Başını qoşmazdı üzü sürtüyə.
Tülkünün adını verib tülküyə,
Filə fil deyərdim, mən Kərəm kimi.

SAXLAR

Ustad aşıq Mahmud Məmmədova ərməğan

Ustad, zəmanənin qaydası budur,
Bülbülü qoynunda gül özü saxlar.
Naşı qoya bilməz lələ qiyməti,
Lələin qiymətini ləl özü saxlar.

Ayna tək görünsün qəlbinin içi,
Sənə deməsinlər nəçidir, nəçi.
İstər alim olsun, istər pinəçi,
İnsan varlığını dil özü saxlar.

Şəhriyaz qəlbində olanı deyər,
Sözünü yükündə olarsa dəyər.
Nə minnət götürər, nə töhmət yeyər,
Yaxşı sənətkarı el özü saxlar.

O VAXTDAN

Ustad aşıq Mahmud Məmmədova ərməğan

Axtarmışam sənin kimi ustadı,
Hörmətini gözdəmişəm o vaxtdan.
Möhlət istəmişdim haqdan bir zaman,
Sözlər seçib üzdəmişdim o vaxtdan.

Dəlisiyəm söz anlayan, qananın,
Sənətin yolunda coşyb yananın.
Səni bəyənməyən dılğır dananın,
Dədəsini dizdəmişəm o vaxtdan.

Yüz namərd yığılsa etmərəm imdad,
Sənin sazın verdi mənə qol-qanad.
Şəhriyazam, açıq deyim ay ustad,
Sənətini izdəmişəm o vaxtdan.



SƏN MƏNİ

Həsən Mirzəyə

Səni sağ olasan ay Həsən Mirzə,
Təzədən gətirdin cana sən məni.
Kövrəlmiş qəlbimə bir sığal çəkdin,
Döndərdin beləcə xana sən məni.

Keçilməz dağları aşa bilmirdim,
Başımı başlara qoşa bilmirdim.
Təbim paslanmışdı coşa bilmirdim,
Silkələdin handan-hana sən məni.

Şəhriyazam, əldə kağız cızırdım,
Axşam pozub, səhər bir şey yazırdım.
Sızqa bulaq kimi axıb sızırdım,
Qarışdırdın bir ümmana sən məni.

ŞİKƏST EYLƏDİ

Kərəm Kürqıraxlının şikəst olur şeirinə nəzirə

Zəmanə bəd gəldi ay şair Kərəm,
Gözəllər üzləri şikəst eylədi.
Bircə şey qalmadı öz nizamında,
Kəm baxışlar gözləri şikəst eylədi.

Qananlar əlindən verdi imkanı,
Möhürləndi ədalətin dükanı.
Hə desə ad gedir, yox desə canı,
Əyrilər düzləri şikəst eylədi.

Danlandı dinmədi susub mumladı,
Yola calaq vurdu, bağı qumladı.
Ağacları qırdı, yeri şumladı,
Dağları, düzləri şikəst eylədi.

Şəhriyaz səndə də bir həvəs oldu,
Dilindən çıxan səs köntöy səs oldu.
Günümüzə baxın bəhsəbəs oldu,
Şairlər sözləri şikəst eylədi.

GƏTİRSİN

Sərraf Şiruyə Həsənoğluna

Uçur göyə şair könül quşunu,
Yurd yerindən mənə soraq gətirsin.
Dağın çiçəyindən nərgiz, lalədən,
Gül toplayıb bircə qucaq gətirsin.

Heç kimdən etməyəm heç vaxt əl-aman,
Məndə sağalmağa ola bir güman.
Yaralı canıma otlardan dərman,
Gözümə nur verən çıraq gətirsin.

Layiq deyil vallah bu baş o başa,
Dost-dosta yaraşar, sirdaş-sirdaşa.
Eşitdim demisən Araz[1] qardaşa,
Şəhriyazı sənə qonaq gətirsin.

[1] Araz – Sərraf Şiruyə Həsənoğlunun qardaşı oğludur.

TƏBİNLƏ

Sərraf Şiruyəyə

Sənətkar oğlusan ay sərraf şair,
Ləli oxşamısan, ləli təbinlə.
Bir gözəlin kürəyində yellənən,
Teli oxşamısan, teli təbinlə.

Yurdumuza dəydi düşmən xətəri,
Bəla olmaz daha bundan betəri.
Lələyə dönübsən sözdən ötəri,
Gülü oxşamısan, gülü təbinlə.

Şəhriyaz zövq aldı əməlli-başlı,
Gəzir bu dünyada qəmli-təlaşlı.
Bir gözü sevincli, bir gözü yaşlı,
Eli oxşamısan, eli təbinlə.

SƏNİN YAZDIĞIN

Sərraf Şiruyəyə

Hər yazanı bəyənmirəm Şiruyə,
Mənə görə güldü sənin yazdığın.
Şair kimi qiymətini vermişəm,
Özün sərraf, ləldi sənin yazdığın.

Ağlıma gələni eyləyim bəyan,
İncilər yaradır sənəti duyan.
Əzəlindən düz tutlub, düz mayan,
Halal süfrə, əldi sənin yazdığın.

Bir anlığa qayıt boylan dön geri,
Dastana çevirdin qanlı səngəri.
Şəhriyazı tutdu sözün ləngəri,
Gözəl Vətən, eldi sənin yazdığın.



YADINA DÜŞÜRMÜ?

Sərraf Şiruyəyə

Ay Şiruyə, ay sənətkar, ay elli,
Söylə görüm göl yadına düşürmü?
Ürəyi niskilli, ay şirin dilli,
O gördüyün göl yadına düşürmü?

Bundan belə ürəyimiz çox inlər,
Xatirəyə döndü toylar-düyünlər.
Uşaqlıqda keçirdiyin o günlər,
Qoxladığın gül yadına düşürmü?

Şəhriyaz, kim bilir fələk nə sayar,
Haqsız qan tökəni haqq ağlar qoyar.
Ələsgəri bizə verən o diyar,
Ağır mahal, el yadına düşürmü?

BAŞLIYAMMIRAM

Sərraf Şiruyəyə

Ay Şiruyə, istəyirəm mən yazım,
Qələmi götürüb başlıyammıram.
Fikirlər başımda dolaşıq düşür,
Sığal çəkib sözü oxşuyammıram.

Vaxtsız üzümüzə qırışıq düşüb,
Alıb yediyimiz qarışıq düşüb.
İlin fəsilləri dolaşıq düşüb,
Qışımı qış kimi qışlıyammıram.

Zəhlə tökən çalışdım ki, sürüşsün,
Külək vurmuş çiçək kimi bürüşsün.
Dostlarım istəyir mənlə görüşsün,
Gedib bir tərəfdə xaşlıyammıram.

ŞİRUYƏ

Sərraf Şiruyəyə

Dədələr nə deyib, doğru deyiblər,
Ustad oğlu şəyird olmaz Şiruyə.
Yaxşı sənətkar eldə öyüblər,
Ustad oğlu şəyird olmaz Şiruyə.

Sənətkar kimsədən gözləməz imdad,
Yaxşı sənətkara nə şöhrət, nə ad.
Sənət zirvəsində çalmısan qanad,
Ustad oğlu şəyird olmaz Şiruyə.

Üz bəzəyir, üz təriflər, üz yazar,
Söz axtarar, söz əzizlər, söz yazar.
Yazdığını kişi kimi düz yazar,
Ustad oğlu şəyird olmaz Şiruyə.

Təsadüfən gəlməmisən sənətə,
Sığal çəkdin sinəndəki srvətə.
Baş əymisən Xaliq verən qismətə,
Ustad oğlu şəyird olmaz Şiruyə.

Şəhriyaz, düşün gör nə demisən,
Dəryalar içində sınıq gəmisən.
Yazanlar yanında ustad kimisən,
Ustad oğlu şəyird olmaz Şiruyə.

ÇƏKƏMMƏDİM MƏN YAXAMI UZAĞA

Şeiryatın köküdür divani, təcnis qağa.
Şair deyil kim çəksə, yaxasını uzağa.
Sərraf Şiruyə.

Təcnis sevdim, divaniyə kökləndim,
Çəkəmmədim mən yaxamı uzağa.
Hərdən qoşalaşdım, hərdən təkləndim,
Yesir oldum yollarında ay qağa,
Çəkəmmədim mən yaxamı uzağa.

Dəlisiyəm, oldum divanə kimi,
Can çürütdüm duydum qanana kimi.
Başına dolandım pərvanə kimi,
Qədirbilməz məni çəkdi sınağa,
Çəkəmmədim mən yaxamı uzağa.

Çoxları qıraqdan boylanıb keçdi,
Yazdığı gördü ki, heç nədi, heçdi.
Təcnis deyə-deyə dünyadan köçdü,
Tərifləndi, bir gəlmədi qınağa,
Çəkəmmədim mən yaxamı uzağa.

Qaşdan yazdım, gözdən yazdım, üz yazdım,
Dərə yazdım, təpə yazdım, düz yazdım.
Beləcə ağlına gələn söz yazdım,
Sənin kimi ləl tökmədim varağa,
Çəkəmmədim mən yaxamı uzağa.

Şəhriyazın umacağı olmadı,
Verəcəyi, alacağı, olmadı.
Səy dostların qanacağı olmadı,
Başı verdim onlar üçün sazağa,
Çəkəmmədim mən yaxamı uzağa.

ALLAH EŞQİNƏ

Aşıq Qaraxanlı Murad Ulduzun
"Allahın eşqinə" qoşmasına nəzirə

İbadət yaxşıdır, ziyarət gözəl,
Səcdə eyləyəsən Allah eşqinə.
Yalan söz insanın üzün qızardar,
Doğru söyləyəsən Allah eşqinə.

Zəlil olsun elə xain baxanı,
Yarımasın görüm evlər yıxanı.
Şeytana aldanıb yoldan çıxanı,
Tutub əyləyəsən Allah eşqinə.

Şəhriyaz, əl əldən incik olmaya,
Kəlamını kimsə gözdən salamaya.
Tamahın ağlını ovsunlamaya,
Düzə düz deyəsən Allah eşqinə.

QAĞA

Hüseyn Arifin bir şeirinə nəzirə

Yoxlamışam indi bircə kimsənin,
Dilindən bir yaxşı söz çıxmır qağa.
Mənəm deyənlərin dəyişib halı,
Əl atır cibindən yüz çıxmır qağa.

Harınlamış gördük, gözləri dolmur,
Ürəyi sıxılmır, yanağı solmur.
Birinə bir barmaq göstərmək olmur,
Barmağın qırılır , göz çıxmır qağa.

Başları nahaqdan daldalayırlar,
Qananı qanmazla xırdalayırlar.
Maşanı götürüb qurdalayırlar,
Ocğın altından köz çıxmır qağa.

Adam var işini dərinləşdirir,
Adam var söz demə söz güləşdirir.
Oğrular peşəsin yeniləşdirir,
Polislər axtarır iz çıxmır qağa.

Şəhriyazın sözün yalan sayıblar,
Yanından keçiblər yolda qoyublar.
Kişilər arvadı qabaqlayıblar,
Arvadlar deyənlər düz çıxmır qağa.

GETDİ

Mürsəl Həkimovun xatirəsinə

Heyif belə sənətkardan, alimdən,
Sənət aləmində pir oldu getdi.
Sinəsi əzəldən söz yatağıydı,
Ləli cilaladı, dür oldu getdi.

Unuda bilmirəm o haqqı sayı,
Mən əmi deyərdim, başqası dayı.
Haqdan verilmişdi kişinin payı,
Özü bir olmuşdu, bir oldu getdi.

Şəhriyaz bilmədi bu oyun nəydi,
Qab dibi yalayan xətrinə dəydi.
Nə dizi qatlandı, nə də baş əydi,
Mürsəl şir kimiydi, şir oldu getdi.

ƏLLİ İL

Aşıq Faxfur Ağbabalının əlli illiyinə

Qəm eyləmə dostum, demə qocaldım,
Ömrün ləzzətidir yaşda əlli il.
Sən sğhbət eylədin mən də eşitdim,
Günlər keçir aylar ötür ilbəil,
Ömrün ləzzətidir yaşda əlli il.

Boylanıb azacıq baxsaq geriyə,
Çətin ki, könlümüz bir an kiriyə.
Ovumuz ovlanıb gəlməz bəriyə,
Əsil necə varsa olacaq əsil,
Ömrün ləzzətidir yaşda əlli il.

Olanlara nəzər salsaq bir anlıq,
Aqil hikmət gəzir, adan yamanlıq.
Yarı qocalıqdı, yarı cavanlıq,
Yalvarsaq da geri qayıdan deyil,
Ömrün ləzzətidir yaşda əlli il.

Fikirlərim məni çəkir uzağa,
Kövrəlib dönürəm hərdən uşağa.
Gedir addım-addım gedir qabağa,
Titrəməsin dodaq, dolaşmasın dil,
Ömrün ləzzətidir yaşda əlli il.

Şair buxovlamaz öz ilhamını,
Cəlb edər dillənsə sözə hamını.
Şəhriyazam, duydum onun tamını,
Şəkərdi, qaymaqdı, baldı elə bil,
Ömrün ləzzətidir yaşda əlli il.

PİR KİMİ

Aşıq Aydın Çobanoğluna

Mənim dediklərim yersiz görünər,
Ləli-gövhər dür kimiydin, dür kimi.
Mərifətdə, qabiliyətdə, kamalda,
Ustad demiş hür kimiydin, hür kimi.

Sənətindən az-çox olmuşdum halı,
Saz sinəndə havalıydın, havalı.
Görünüşün ustadların timsalı,
Çağlayanda Kür kimiydin, Kür kimi.

Şəhriyazın meyli sənə sarıydı,
Dilim gəlmir deyəm ömür yarıydı.
Üzündə xilqətin nuru varıydı,
Cavanlıqda pir kimiydin, pir kimi.

ONDA

Aşıq Aydın Çobanoğluna

Gördüyüm anları unutmaq olmur,
Dilindən tökülən ləliymiş onda.
Məni ovsunlayıb toruna salan,
Şəkərə bənzəyən diliymiş onda.

Olmuşdum bir gözəl şeir səsləyən,
Yoldan keçənləri səslə əyləyən.
Könlümü çöllərdə yesir eyəyən,
Sazın üstündəki teliymiş onda.

Aşıqlıqda ustad dəsrsi almışdı,
Telli sazı sevə-sevə çalmışdı.
Şəhriyazı sözlə ovsunlamışdı,
İllərinə gözəl iliymiş onda.

AYDIN

Aşıq Aydın Çobanoğluna

Gözəl yaratmışdı Yaradan onu,
Şirincə dillərdə sözüymüş Aydın.
Ata kimi o qayğıkeş ataydı,
Oğluna, qızına gözüymüş Aydın.

Olmuşdu sənətin bir divanəsi,
Oxuyanda məst edərdi hər kəsi.
Məlahətli səsi çay zümzüməsi,
Sinəsi alovlu közüymüş Aydın.

Şəhriyaz kəlməsi əl sığalıdı,
Bülbül tək nəfəsi gül sığalıydı.
Elə bil barmağı tel sığalıydı,
Dədə sənətinə düzüymüş Aydın.

İL BELƏ

Şagirdlərin dilindən müəlliməyə yazılmış şeir

Bizi öyrətmişdin elmi-kitaba,
Deyərdin ki, gül beləymiş, gül belə.
Əksini çəkərdin özün lövhədə,
Çəmən belə, çöl beləymiş, çöl belə.

Qarşında dayanıb dönərdik lala,
Bizim könlümüzdə oldun bir qala.
Hər sözün-söhbətin dönərdi bala,
Ləl söyləyən dil beləymiş, dil belə.

Şəhriyaz çox bəhərlənib o vardan,
Bir vaxt tutub yeriyərdi divardan.
Kürəyində saçlarını ağardan,
Gəlib keçən il beləymiş, il belə.



ÖZÜNDƏ GÖZƏL

Sakit Qızıldaşılının dilindən

Gözün aydın olsun, ay qardaş oğlu,
Yarın da gözəldi, özün də gözəl.
Özünə yaraşır sənin Ceyranın,
Yarın da gözəldi, özün də gözəl.

Məhəbbət yaranmır, nə var, nə zərdən,
Az ömürdən niyə küsək biz hərdə.
Yaradan saxlasın sizi nəzərdən,
Yarın da gözəldi, özün də gözəl.

Şəhriyaz, kəlməni yaxşı seç ara,
Bəxtin açıq olsun getsən də hara.
Yaxşı adın düşsün gözəl diyara,
Yarın da gözəldi, özün də gözəl.



QOŞA TUTDULAR

Alqayıta

Ay Alqayıt, bu dərd məni öldürdü,
Dananı kəl ilə qoşa tutdular.
Adət də dəyişdi, din də, iman da,
Qanqalı gül ilə qoşa tutdular.

Mən deyəni siz də bir az düz duyun,
Axşam sabahımız oyundur, oyun.
Çirkaba bulaşmış gölməçə suyun,
Gətirib göl ilə qoşa tutdular.

Çıxardılar yaddan qorxu, ürkünü,
Üstün eylədilər qəlbi çirkini.
İş görəndə gizlədilər tülkünü,
Yeyəndə fil ilə qoşa tutdular.

Həqioqət donunu geydi yalanlar,
Dünyadan incidi gözü dolanlar.
Ədəbdən, ərkandan kənar olanlar,
Ayağ əl ilə qoşa tutdular.

Şəhriyaz, yadına düşdü haralar,
Sızıldadı yenə köhnə yaralar.
Qəlbini incitdi cızma-qaralar,
Çiy sözü ləl ilə qoşa tutdular.

SARI

Alqayıta

Ay sənətkar, kitabını oxudum,
Xəyalım uçundu ellərə sarı.
Könlümü tərpədən şirin sözlərin,
Məni tutub çəkdi çöllərə sarı.

Düz olan düz gəzər, düz arxasınca,
Ömür var əriyir söz arxasınca.
Misraların məni öz arxasınca,
Apardı o keçən illərə sarı.

Şəhriyazı zaman söküb bitirdi,
Üzdə görünməmiş gözdən itirdi.
Oxuduqca fikir məni götürdü,
Titrək əlim qalxdı tellərə sarı.




SƏNİ

Könül dostum Qurbanov Kamilə ərməğan

Həsrətindən bağrın başı göynəyir,
Heyif ki, görürəm, heyif az səni.
Ötən günlərimiz gedibdir əldən,
Görən kövrəldirmi telli saz səni.

Hər dildən çıxanı qavramır ağıl,
Uydurub əfsanə, demirəm nağıl.
Sənin qiymətini bilməz hər oğul,
Yaradan yaradıb xoş avaz səni.

Dostluğu hər adam bilməsin asan,
Dost yolunda gərək canı qıyasan.
Könül sarayımın şah taxtındasan,
Ömürlük unutmaz Şəhriyaz səni.



KÖNLÜM OYANSIN

Aşıq dostum İmrana

Yaradanım səni mənə yetirib,
Oxu İmran, yatmış könlüm oyansın.
Telli sazı şirin dillə dindir sən,
Oxu İmran yatmış könlüm oyansın.

Doğma sözlər bir-birinə calandı,
Oxuyanda bağrım başı talandı.
Fikrim gedib yaylaqları dolandı,
Oxu İmran, yatmış könlüm oyansın.

Şəhriyazı gətirmisən həvəsə,
Heyran oldum səndə olan həvəsə.
Sazınla balaban versin səs-səsə,
Oxu İmran, yatmış könlüm oyansın.



GƏLSİN

Şair dostum Əhliyyətə

Şair dostum burax ilham atını,
Misraları kağız üstə düz gəlsin.
Baxma bu dünyanın kəm-kəsirinə,
Təbin coşsun ürəyinə söz gəlsin.

Hələ ki qalıbdı arada pərdə,
Gəl meydan oxuyaq kədərlə dərdə.
Baş-başa oturaq xudmani yerdə,
Lülə gəlsin, tikə gəlsin, yüz gəlsin.

Şəhriyazı kəlmə-kəlmə dindirin,
Yanğısını telli sazla söndürün.
Dostların dalınca uşaq göndərin,
Sakit gecikməsin, Əli tez gəlsin.



EYLƏYİBDİ

Şair dostum Əhliyyətin "Eyləyibsən" şeirinə nəzirə

Ay Əhliyyət bəxti təzə açılıb,
Həsrəti özündən dal eyləyibdi.
Təzə gəlin kimi təzə bəzənib,
Çoxunun dilini lal eyləyibdi.

Neçəsinə baxıb bucaqda, tində,
Həvəsə gəlibdi o da bu sində.
Yazıq neyləsin ki, ata evində,
Tənhalıq ürəyin xal eyləyibdi.

Canı yanmış gözəl həmsöhbət tapıb,
Könlünü tərpədən bir ülfət tapıb.
O da qırx beşində məhəbbət tapıb,
Halını bir özgə hal eyləyibdi.

Sən demiş "gözündən su verən vaxtı",
Ərinin evində bəzənib taxtı.
Qisməti açılıb, gətirib baxtı,
Qurumuş dodağın bal eyləyibdi.

Şəhriyaz, düz danış olsun müştərin,
Görərsən dünyada bundan betərin.
Gecə vərəqləyib eşqin dəftərin,
Kişisin Rüstəmi – Zal eyləyibdi.

TANIYA BİLMƏDİM....

Əsgər yoldaşım Alıya

Günahkaram, ay saqqalı ağarmış,
Tanıya bilmədim, tanıyım səni.
Qocalıq insana qaxınc olarmış,
Tanıya bilmədim, tanıyım səni.

İxtiyarın çatır mənə nə desən,
İncimərəm ata kimi ərk etsən.
Kərəm sahibisən özün anla sən,
Tanıya bilmədim, tanıyım səni.

Ağlım inci gəzib, mərcan tapardı,
Yurd həsrəti başda tufan qopardı.
Olan yaddaşımı zaman apardı,
Tanıya bilmədim, tanıyım səni.

Uzaqdan başlandı sözün gəlişi,
Məni zora salır əlimin işi.
Mən ağ saçam, sən də nurani kişi,
Tanıya bilmədim, tanıyım səni.

Şəhriyazın düzdü eşqi-amalı,
Dəyişib əhvalı, pozulub halı.
Bağışla sən məni, bağışla Alı,
Tanıya bilmədim, tanıyım səni.

SİZİNKİ NECƏ?

Rüstəm Sarımmətinin eyni adlı şeirinə

Şair qardaş bir qulaq as mən deyim,
Bizimki belədir, sizinki necə?
Az qalır ki, qabağında baş əyim,
Bizimki belədir, sizinki necə?

Onu gətirəndən qürurum itdi,
Heç bilsən evimdə nə tufan etdi.
Qızımı birinə şəllədi getdi,
Bizimki belədir, sizinki necə?

İxtiyarım yoxdur artıq danışam,
Öyrəşmişəm qabağında qırışam.
Həddim nədir kişilərə qarışam,
Bizimki belədir, sizinki necə?

Təpəmdə oynayır qazan qapağı,
Qorxusundan tərgitmişəm arağı.
Məni eyləyibdi bir əl uşağı,
Bizimki belədir, sizinki necə?

Şəhriyaz, belimdə sındırır çəlik,
Qorxudan tapmışam evdə xəstəlik.
Çox da sözü emirəm özüm hələlik,
Bizimki belədir, sizinki necə?

ƏLLİ BEŞDƏ

Dostum Tacir Səmiminin əlli beş yaşına

Hər yetən yerişin yeriyə bilməz,
Alnın açıq, ağdı üz əlli beşdə.
Dilinlə ürəyin bərabər oldu,
Qəlbin düz, yolun düz, düz əlli beşdə.

Yorulmaq bilmədin dürr gəzə-gəzə,
Bu yolda ürəyin çətin ki bezə.
Elin folklorunu çıxardın üzə,
Çoxdu ocağında köz əlli beşdə.

Şəhriyazın inadından dönməsin,
Sinənin atəşi, ou sönməsin.
Səni bəyənməyə qoy bəyənməsin,
Damağa dad verdi söz əlli beşdə.

2011-ci il

DOLANIM

Ağbaba ziyalısı Səfər müəllimə


Sizdə bir gövhər var sərrafı mənəm,
Gətir mənə ver başına dolanım.
Vərəqləyim bu könlümü ovutsun,
İnci, mərcan, dürr başına dolanım.

Haqq bağından üzülübdür kəlməsi,
Göz yaşı tək süzülübdür kəlməsi.
Muncuq kimi düzülübdür kəlməsi,
Hikmət dolu sirr başına dolanım.

Şəhriyazam, düşünürəm bir təhər,
Hər kitab zövq vermir "Ay hayıf"[1] qədər.
Gecələr həmdəmim olsun ay Səfər,
Axşam-səhər bir başına dolanım.

[1] Ay hayıf – Türk aşığı Qaraxanlı Murad Ulduzun kitabı nəzərdə tutulur.

TƏCNİSLƏR



DÜRÜST DƏR MƏNİ

Dağların qoynunda yalqız bir güləm,
Görsən dürüst iylə, dürüst dər məni.
Nanəcib görəndə qanım qaralır,
Yaxşı başa düşər dürüsd ər məni.

Vermişəm şirəni birdən əm belə,
Tutmasın gözünü bir də nəm belə.
Ay gözümün nuru bir dənəm belə,
Gözlə aparmasın dürüs dər məni.

İstəmirəm kimsə mənə dür ata,
Özüm dürəm, dür anamdı, dür ata.
Şəhriyazam yüklənəndə dür ata,
Dürüst xatırlayar dürüsdər məni.

GÖZƏL DƏN DÜŞƏR

Taleyin hökmündən kimsə qaçmayıb,
İnsan qocalanda göz əldən düşər.
Yaz mövsümü təbiyətə gələndə,
Sünbülə vaxtında gözəl dən düşər.

Ər oğlusan bir də əri gör sən ər,
Əl açana kömək edər görsə nər.
Başın ağarmağı gözə görsənər,
Qara saçlarına gözəl dən düşər.

Şəhriyaz, çox demə ömür yarıdır,
Fərli oğul atasını yarıdır.
Görəndə deyərlər kimin yarıdır,
Yaxşı söz yaxşıca gözəldən düşər.

O YAĞI

Qəflət yuxusunda yatıb qalan kəs,
İstəsə də görə bilməz oyağı.
Vətənsizin xoş günü də dərd olar,
Dildə gəzər ay bayatı, oy ağı.

Dönəcək gedənin durub durub gözləsən,
Niyə can alırsan qaşla, gözlə sən!
Dedim səbrin olsun bir az gözlə sən,
Qarışdırma təzə bala, o yağı.

Məni üzdü əlif adı, dal adı,
Baş açmıram niyə meylin daladı.
Şəhriyazı gecə-gündüz daladı,
Yaman günə məni qoydu o yağı.

QAL ANA DAĞLAR

Nə müddətdir gəlhagəlin kəsilib,
Həsrətdi, möhlətli qalan a dağlar.
Neçə təbib gəlsə eyləməz əlac,
Elsiz yana-yana qalan a dağlar.

Qışı başa vurdun yetiş çat maya,
Sözüm xoş gəlmədi qaşı çatmaya.
Qorxum odur muradına çatmaya,
Beləcə odlara qalana dağlar.

Mən vurmadım ana bala arasın,
Sınmamışam desələr də ara sın.
Şəhriyazın kimdən səni arasın,
Qalıbsan, eləcə qal ana dağlar.

AY BELƏ-BELƏ

Siz Allah bu yandan gələnə baxın,
Kəməri yaraşır ay belə-belə.
Gözünü süzdürüb ağlımı aldı,
Qarşıdan keçəndə ay belə-belə.

Al bıçağı bu yemişi kəs iri,
Öyrət mənə tənlik ilə kəsiri.
Olmaya sözlərin bir kəm-kəsiri,
Yaxşı yaradasan ay belə-belə.

Şəhriyaz versən də baxmaz at ətə,
Çox demişəm sən az duzu at ətə.
İllər boyu bel bağladıq ATƏTƏ,
Günlərimiz ötdü ay belə-belə.

YA QAZI

Səyyad kimi ov dalınca çıxasan,
Ovlayasan ya ördəyi, ya qazı.
İnsafınız olsun qaş qaralanda,
Siz kəsməyin ya işığı, ya qazı.

Dərdin olsa bir böyüklə dərdləşər,
İki dərdli görüşəndə dərdləşər.
Elə ki evinə düşdü dərdlə şər,
Çağır gəlsin ya mollanı, ya qazı.

Şəhriyaz gedəndə çalış düz yeri,
Əlin öz yeri var, başın öz yeri.
Beli götürmüsən indi sən yeri,
İstəyirsən ya qazıma, ya qazı.

GÖZƏLDƏN

Gözəlliyi verən bolluca verib,
Görən əl çəkərmi belə gözəldən.
Köhnə günlərimiz düşdü yadıma,
Söhbət eyləyəndə bizim Gözəldən.

Dedin gəlsən bir danışaq, hə şirin,
Nizamidə Xosrov sevdi hə Şirin.
Daha niyə düşsün haray-həşirin,
Saçlarında görünəndə gözəl dən.

Şəhriyazın dərdi sənə ayandır,
Çırağını sən əlinlğ a yandır.
Əsəbləşib ha desən də ay andır,
Gedir elə günü-gündən göz əldən.

ATAYA

Övladın fərlisi başın tacıdır,
Səcdə qılar baş endirər ataya.
Yayın gecəsində çölə çıxanda,
Dəli deyər götür daşı at Aya.

Güllə atma ağ kəkliyə, çilə də,
Şitil əkən suyun yaxşı çilədə.
Qışın soyuğunda qarlı çilədə,
Mal-qara yeyəcək səni a taya.

Şəhriyaza elə vermə az acıq,
Aç süfrəni gətir çörək az acıq.
Qəlbindən keçəni duyar azacıq,
Yaxşı tay yetişsə yaxşı a taya.

BU TAYA DÜŞDÜ

Şükür olsun həsrətlilər görüşdü,
O tayın sədası bu taya düşdü.
Yığıb saxlamışdın yaz qabağına,
Qış gələndə yada bu taya düşdü.

Nədən kövrəlmisən yenə ay Əmir,
Körpə uşaq anasını ay əmir.
Tanrıdan gələndə ona ay əmir,
Yaratmaq həvəsi Butaya düşdü.

Deyirsən ki, sən dəryasan, mən ada,
Əzəldən heyranam gözəl mən ada.
Şəhriyaz, qismətin yaxşı mənada,
Mövlanın verdiyi butaya düşdü.

A SANA

Kətə bişirməyin vaxtı yetişdi,
Yağla sacı ocaq üstə as, ana.
Can demişik yenə can-can deyirik,
Bizi boğazlayıb dardan asana.

Bığ saxlayan tumarlaya həm eşə,
Yeri qazan həm qazıya, həm eşə.
Əhvalımız yaxşı olar həmeşə,
Çevirəndə çətin işi asana.

Sizə gəlsəm nə gətirim de sənə,
Biz barışaq keçsin gözəl de sənə[1].
Küskün olma fərəhlənib desənə,
Dövran gələr biz düşərik a sana.

Ev üstündə mən döşənmiş bir qıram,
İstəmədim kövrək qəlbi bir qıram.
Qalmayıbdır bizdə ağıl bir qıram,
Kərə yağdan keçdik sənə a "sana".

İncitmədim bir kimsəni ayarı,
Qəfil çaldın məni sən də ay arı.
Ay Şəhriyaz, ömür oldu a yarı,
Keçən günlərini indi a sana.

[1] Sənə – il.

ŞAHSƏNƏMİNDİ

Qərib qürbət eldə yeddi il gəzdi,
Gələndə dedilər Şahsənəmindi.
Ayrılıq həsrəti üzmüşdü canın,
Görəndə sevindi Şahsənəm indi.

Bükülübdür dəstə-dəstə ot ağa,
Əziləcək ayaq qoysan o tağa.
Göstəriş ver gətirsinlər otağa,
Gəlib hüzuruna Şah Sənəm indi.

Qəfil qaçan ya tülküdür, ya dələ,
Ox nişanı ya dəlməyə, ya dələ.
İnsafdırmı əli dəyə yad ələ,
Qəribin yarıdır Şahsənəm indi.

Həyasızla sən də bir az dilləş ər,
Evlər yıxar hər an acı dillə şər.
İncitsəniz o sizinlə dilləşər,
Xətrinə dəyməyin Şah Sənəmindi.

Şəhriyazam, alsın məndən yarım can,
Sədaqətdə kimsə olmaz yarımcan.
Ay kəhər at olsan belə yarımcan,
Süvar olub tezdən Şah sənə mindi.

A YARIM

Dindirməyin məni özgə haldayam,
İncidir ay ellər canı a yaram.
Dəyişə bilmərəm öz adətimi,
Naxələflə heç düzəlmir ay aram.

Dərd gələndə yağışını göz ələr,
Heyif oldu əldən çıxdı Gözələr[1].
Niyə durub desinlər ki gözəl ər,
Ömürlük yarıma yaxşı a yaram.

Tomris qılınc vurub öldürdü Kiri,
Pintinin evində qurtarmaz kiri.
Şəhriyaz çox deyib indi sən kiri,
Düzəlmərsən, ermənisən, ay Aram.

ELƏ SİNƏDƏN

Əyilməz başımı bəlaya saldın,
Yaxşılıq bilmədi eləsi nədən.
Elin ətəyindən əl üzməyəsən,
Varını verəsən elə sinədən.

Uzatsan da çata bilməz əl Aya,
Paxıllıq eyləmə təbi əlaya.
Ağlını apara ərşi-əlaya,
Baxıb zövq alasan elə sinədən.

[1] Gözələr – Dərələyəzdə çəmənlik adı.

Şəhriyazın azalıbdır kəm səri,
Can əridi öyrənmədi kəmsər "i".
Qaytarma qapından yazıq kəmsəri,
Təbib sənsən dərman elə sinədən.

AY ATA MALI

Dədədən -babadan belə görmüşük,
Balaya mirasdı ay ata malı.
Cəhənnəm odunu yaddan çıxarma,
Əyri yoldan çəkil , ay Atamalı.

Gözəl zülm çəkər getsə səf ərə,
Gör necə oynaşır çöldə sə fərə.
Hazırlaşıb sən çıxanda səfərə,
Dayanma gəl yüklə ay ata malı.

Nanəcibdən xeyir görməz yar adam,
Qonaq gəlsə qurban olsun yara dam.
Şəhriyazam, gərək yaxşı yaradam,
Təcnisdə ustamdı ay atam Alı.


AY AĞI MƏNDƏ

Ustad sənətkara canım qurbandı,
Bayatı ondadır, ay ağı məndə.
Yanana dost oldum ,yamandan qaçdım,
Olmadım kimsəyə a yağı mən də.

Qarışdırma həm qəmlini, həm dəmi,
Yaxşı qaynat gətir çayı həm dəmi.
Çiçək dərdik ay könlümün həmdəmi,
Sarısı səndədir, ay ağı məndə.

Şəhriyazam, sünbülündə bir dənəm,
Ala gözü qoy tutmasın bir də nəm.
Çölə çıxdıq məcbur etmə bir dənəm,
Pulum çatmır alım a yağı mən də.

CIĞALI TƏCNİSLƏR



A YALA-YALA

Yaz mövsümü gül dərməyə çıxasan,
Dolanıb gələsən a yala-yala.
Aşıq deyər a yala,
Hörmət eylə ayala.
Canan ona deyərəm,
Can dərdini ay ala.
Bəzirgan yolunu sala bazara,
Gəzib istəyini ay ala-ala.

Ocaqda odunu a yarı yandı,
Od aldı pətəyi ay arı yandı.
Aşıq a yarı yandı,
Canda ay arı yandı.
Kərəmin öz odunda,
Yandı a yarı yandı.
Könül sevgisindən a yarıyandı,
Gözləri aladır ay ala-ala.

Şəhriyaz, çox susma gəl bir din ara,
Kim deyər ki gedib özgə din ara.
Aşıq deyər dinara,
Danış ara din ara.
Meyvə satan səslədi,
Müştəri gəl di nara.
Gözəlin olmaya meyli dinara,
Deyə gəl üzümü a yala-yala.

AY DÜZƏ-DÜZƏ

Ayna qabağında nazlanar gözəl,
Saçını üzünə ay düzə-düzə.
Aşıq deyər ay düzə,
Ay çəmənə ay düzə.
Yar ala muncuqları,
Bir-bir sapa ay düzə.
Seyr etmək istəsən çölü-çəməni,
Dağlardan enəsən ay düzə-düzə.

And içmisən götür bir də yaz andı,
Axır ki insafsız məni yaz andı.
Aşıq deyər yaz andı,
Yaz inamı yaz andı.
İnanma hər mollaya,
Molla cadu yazandı.
Sənətkar həmişə yaxşı yazandı,
Yazır sözlərini ay düzə-düzə.

Çətin gündə dada çatar ər indi,
Tənbəl qışda yatıb yazda ərindi.
Aşıq deyər ərindi,
Yağ qazanda ərindi.
Qulluğunda yaxşı dur,
Ər ki sənin ərindi.
Şəhriyaz, deyiblər meydan ərindi,
Əyrilər neyləyər ay düzə-düzə.


AY ALIM İNDİ

Göynəmişəm həsrətini çəkməkdən,
Mənsizdir yamacım a yalım indi.
Aşıq deyər a yalım,
Ay bəyazım ay alım.
Dediyini almadım,
Gözlə gələn ay alım.
Bir gecə nədənsə gəldi yadıma,
İtimə verdiyim a yalım indi.

Nəsihət kar etməz ta beləsinə,
Eləsi nədir ki, ta beləsi nə.
Aşıq deyər ta belə,
Kəmər bağla ta belə.
Yeri ələ bilmirsən,
Əli vurma ta belə.
Gümanım sənədir tab elə sinə,
Mənə gələn dərdi ay alım indi.

Şəhriyaz olubdur nəs ağam indi,
Nəyim var tövlədə nə sağam indi.
Aşıq deyər nəs ağa,
Baxma sola, nə sağa.
Zəmanə qara gəldi,
Günün oldu nəs ağa.
Dedi nə xəstəyəm, nə sağam indi,
Beləcə söylədi ayalım indi.

DİVANİLƏR



MƏN

Mərd adamın köməyidir,
Vurulmuşam mərdə mən.
Arxasınca dolanıram,
Qoymaz düşüm mərdə mən.
Can ağrıyır, ayaq getmir,
Necə gedib dolanım?
Neçə ilin xəstəsiyəm,
Yarıcanam yerdə mən.

Mülkü-varım azalmayıb,
Mən sinəsi doluyam.
Haqqım yoxdur durub deyəm,
Ululardan uluyam.
Haqq bilirəm Yaradanı,
Mən ki onun quluyam.
Dərgahına baş əymişəm,
Xeyirdə mən, şərdə mən.

Şəhriyazam, əhsən dedim,
Ustad yolu tutana.
Əqidəmə sahib oldum,
Qoymadım üz utana.
Azman kişilər demişkən,
Baş əymədim şeytana.
Böyük-kiçik arasında,
Saxlayıram pərdə mən.

BAŞ ƏYDİM

Mürsəl Həkimovun xatirəsinə

Əhli-ürfan adamıydı,
Görüb ona baş əydim.
Sözləriylə bəhrələndim,
Qana-qana baş əydim.
Ağayana bir kişiydi
Nur yağardı üzündən.
Görüşəndə səcdə qıldım,
Yana-yana baş əydim.

Damla-damla toplayardı,
Xərclərdi gilə-gilə.
Ləl tökülərdi dilindən,
Dinərdi gülə-gülə.
Elmə ürəkdən bağlıydı,
Demirəm elə-belə.
Dərya təki çalxalandım,
Ol ümmana baş əydim.

Tanrı verən elçilərin,
Birinin adı Mürsəl.
Gözümün nur işığıydı,
Ağzımın dadı Mürsəl.
Şəhriyazam, on sərvərin
Oldu ustadı Mürsəl.
Ləzzəti qaldı sinəmdə,
Dürr-dəhana baş əydim.

SƏBRİM YETƏR

Söz xəzinəsi ümman ola,
Üzməyə səbrim yetər.
Aparalar səhralara,
Gəzməyə səbrim yetər.
Dünyanın başbilənləri,
Yığışalar başıma.
Əllərimdən saxlayalar,
Dözməyə səbrim yetər.

Tamahımı cilovladım,
Heç nəyə göz dikmədim.
Ustadların ətəyindən,
Mən əlimi çəkmədim.
Namərdlərin qabağında,
Əyilib diz çökmədim.
Kəlləsini qələmimlə,
Əzməyə səbrim yetər.

Şəhriyazam, kimsə varmı,
Ağlaya məndən betər.
Sinəsini çalın-çarpaz,
Dağlaya məndən betər.
Yaradana varlığını,
Bağlaya məndən betər.
Həqiqətin meyvəsini,
Üzməyə səbrim yetər.

İNSANI GÖZDƏN SALAR

İnsanın özün öyməyi,
İnsanı gözdən salar.
Danışıb yalan deməyi,
İnsanı gözdən salar.
Könül şüşəyə bənzəyir
Sınsa qəfildən sınar,
Haramxorların yeməyi,
İnsanı gözdən salar.

Aqillərin kəlamında,
Hikmət olar deyiblər.
El-obaya kəm baxanı,
Danlayıblar söyüblər.
Haqq yolunda ədalətə,
Kişilər baş əyiblər.
Harda gəldi əyilməyi,
İnsanı gözdən salar.

Şəhriyaz öz otağında,
Odlu kiçik bir guşən.
Yazıb-pozmaqdan savayı,
Olmadı özgə peşən.
İnsanlığın zivəsinə,
Çata bilməz gor eşən.
Uşaq kimi söyülməyi,
İnsanı gözdən salar.

LAZIM OLAR

Başı saxla öz dərdini,
Çəkəndə lazım olar.
Dizdərini gücdən salma,
Çökəndə laızm olar.
Harda gəldi, necə gəldi,
Axıdıb car eyləmə,
Zaman gələr göz yaşını,
Tökəndə lazım olar.

Dilimdən nə eşidirsən
Qulaqda sırğa elə.
Yola çıxsan köhlənini
Bəsləyib yorğa elə.
Səbrin olsun tələsimə,
Düşməni qarğa elə.
Əl uzadıb yaxasını,
Sökəndə lazım olar.

Qaxınc oldu ad-sanına,
Şəhriyazın qüruru.
Günlər keçir, aylar ötür,
Sönür gözünün nuru.
Bər-bəzəkli çəliyini,
Evində yaxşı qoru.
Qocalanda, Tanrı beli,
Bükəndə lazım olar.

NƏZƏRDƏN DÜŞƏR

Kəm baxa insan zamana,
Dövran nəzərdən düşər.
Dəryalara baxan olmaz,
Ümman nəzərdən düşər.
Qaydasınca verilməsə.
Hər kəsin öz qiyməti.
Təbib canından usanar,
Loğman nəzərdən düşər.

Səbir Allahın adıdır,
Səbir eylə həyata.
Mizan-tərəzi öndədir,
Yetişərsən Sirata.
Qəm eyləmə ay binəva,
Sözün keçməz isbata.
Qanmazlar meydan sulayar,
Qanan nəzərdən düşər.

Şəhriyaz öz mətləbini,
Sirri-Xudadan alar.
Eldə müsibət olanda,
Neçə-neçə göz dolar.
Cinayət cəzasız qalsa,
Yenə cinayət olar.
Haqq ədalət yoxa çıxar,
Divan nəzərdən düşər.

KEÇƏR

Bu dünyada kimi başdan,
Kimi ayaqdan keçər.
Türfə gözəllərin yolu,
Sərin bulaqdan keçər.
Bir vaxt sənə can deyənlər,
Sənə həmdəm olanlar,
İndi yanından dolanmaz,
Gedib uzaqdan keçər.

Baş neyləsin, gözlər görür,
Can düşür özgə hala.
Cəfa çəkməyə öyrəşib,
Kasıblar bala-bala.
Doğru nədi, yalan nədi,
Deyilsə də dal-dala.
Dil-dodaqdan çıxan sözlər,
Gəlib qulaqdan keçər.

Ərşi-əlaya qalxsan da,
Yoxdur dünyanın sonu.
Bir gün yerə enəcəksən,
Geysən qızıldan donu.
Qadir-mövlam belə yazıb,
Mən necə pozum onu.
Şəhriyazın yanan canı,
Qardan-sazaqdan keçər.

ÇIXAR

Yaylaqları seyr etməyə,
Gözəllər qoşa çıxar.
Baş yerdə şey axtaranın,
Əlləri boşa çıxar.
Ağzın açıb danışanda,
Fikir vermə sən ona.
Həyasıza aman versən,
Dırmaşıb başa çıxar.

Heyif oldu yarımadım,
İstədiyim diləkdən.
Başım hələ açılmayır,
Fırıldaqdan, kələkdən.
Mən ki qibtə eyləmədim,
İncimişəm fələkdən.
Nəverimin bəxti açıq,
Qisməti aşa çıxar.

Yaltaqlığı bilməmişəm,
Bilm ömrü boyunca.
Xəyanəti eyləmərəm,
Başı yerə qoyunca.
Şəhriyazam, əziyyəti,
Gördüm çoxdan doyunca,
Yaxşı yerdə yer qazısam,
Külüngüm daşa çıxar.

BİZ KİMİK

Anlamırıq baş açımırıq,
Bu dünyada biz kimik.
Yatdıq günlərimiz getdi,
Quru bada biz kimik.
Lovğalanıb əl çəkmirik,
Sinəmizə döyməkdən,
Fürsəti əldn vermişik,
İndi yada biz kimik.

Dür satırıq, zər satırıq,
Bircə gəlib alan yox.
Səcdə qılıb baş əyirik,
Dilimizdə yalan yox.
Bilən bildiyini edir,
Bizi saya salan yox.
Yalvarsaq da heç düşmərik,
Yenə yada biz kmik.

Şəhriyazı dindirmə sən,
Dayanıb gendə dur.
Toxunmağa gücüm çatmır,
Guruldama gurhagur.
İşin çətin düzələndə
Nahaq yerə başa vur.
Yaman yerdə tutub bizi,
Qəfil qəza biz kimik.

BİRDİ BİR

Əşrəfi-həbibim odur,
Yaradanım birdi-bir.
Başqa dini neyləyirəm,
Din imanım birdi-bir.
Cəmdi doxsan min kəlmədə,
Yüz on dörddü surəsi.
Məhəmmədə nazil olan,
Ol quranım birdi-bir.

İncitmədim bir kimsəni,
Utanmadım, küsmədim.
Danışana macal verdim,
Söhbətini kəsmədim.
Həqiqətin yollarında,
Büdrəmədim, əsmədim.
Yaxşı-yaman saxladığım
Adım-sanım birdi-bir.

Gül çöhrələr açılıbdı,
Solacaqdı dünyada.
Olub yenə çox qovğalar,
Olacaqdı dünyada.
Şəhriyazam, nəyim varsa,
Qalacaqdı dünyada.
Son mənzilə yola çıxan,
Cismi-canım birdi-bir.

ZƏNCİRLƏMƏ DİVANİLƏR



ALLAH EŞQİNƏ

Mən kiməm ki, söz yaradam,
Söz Allahın eşqinə.
Düz olmuşam, düz demişəm,
Düz Allahın eşqinə.
Qismətimi özü verin,
Salıb məni bu yola.
Ölçüb-biçib yüz demişəm,
Yüz Allahın eşqinə.

Allahın eşqi ürəyimdən,
Kənarlaşıb getməsin.
Səcdəsinə baş əyəni,
Zəlil-müstər etməsin.
Allahına asi olan,
Muradına yetməsin.
Çətinliyə, hər əzaba,
Döz Allahın eşqinə.

Allahın eşqi Şəhriyazın,
Dərmanı əlacıdır.
Doğru danışanın dili,
Deyərlər ki, acıdır.
Beş məhsumu dil əzbəri,
Şahi-Mərdan tacıdır.
Həqiqətin dür meyvəsin,
Üz Allahın eşqinə.

HAQDAN GƏLƏR

Haqq yolunun yolçusuyam,
İmanım haqdan gələr.
Haqqa könüldən bağlıyam,
Gümanım haqdan gələr.
Dünya varı haqq yolundan,
Məni azdıra bilməz.
Dara düşsəm, darda qalsam,
Amanım haqdan gələr.

Haqdan ötrü yaşayıram,
Çalışıram haqq üçün.
Dərviş kimi, sufi kimi,
Dolaşıram haqq üçün.
Gecə-gündüz səcdə edib,
Alışıram haqq üçün.
Cismi canı dərd götürsə,
Dərmanım haqdan gələr.

Haqq aşiqi Şəhriyazam,
Yoxum-varım tək odur.
Ətəyindən əl üzmərəm,
Havadarım tək odur.
Bu dünyaya haqq gətirib,
Səbəbkarım tək odur.
Bu dünyadan köç etməyə,
Fərmanım haqdan gələr.

LAYİQ DEYİL

İnsan olan öz-özünü,
Öyməti layiq deyil.
Başı durub harda gəldi,
Əyməyi layiq deyil.
Kişilər var paltarından,
Seçib ayırmaq olmur,
Zənən kimi hər nə gəldi,
Geyməyi layiq deyil.

Layiqdirsə söyüş söymək,
Qoy dədənə söysünlər.
Oturanda dizdərinə,
Durub başa döysünlər.
Yaxşılığı gözdənsalıb,
Yamanlığı öysünlər.
Ara vurub, ev yıxanın,
Söyməyi layiq deyil.

Layiqdirmi Şəhriyaza,
Hər nadana baş qoşa.
Düz yolunu tərk eyləyə.
Atın sürə yoxuşa.
El içində ağır dolan,
Əmələin gəlsin xoşa.
Sənətkarın harda gəldi,
Dinməyi layiq deyil.

NƏZƏRDƏ TUTMUŞAM

Gül cəmalına baxmağa,
Göz nəzərdə tutmuşam.
Amalımı, əqidəmi,
Düz nəzərdə tutmuşam.
Taleyimi özü yazıb,
Məsləhət özünündür.
Şəninə tərif deməyə,
Söz nəzərdə tutmuşam.

Nəzərimdən düşə bilməz,
Kim deyər yolun azır.
İki mələk çiynindədir,
Xeyri-şərimi yazır.
Günahkaram hər əmrinə,
Dayanmaışam mən hazır.
Xaki-payına sürtməyə,
Üz nəzərdə tutmuşam.

Nəzərimdə gül-çiçəkli,
Gözəl yazdı ildiyim.
Ustadların sinəsində,
Coşan sazdı bildiyim.
Şəhriyazam, yaratdığım,
Hələ azdı bildiyim.
Qalacaqsa bu dünyada,
İz nəzərdə tutmuşam.


YALAN DEMƏZ

Kişi olan düz danışar,
Bil düzə yalan deməz.
Qarşıdakın salim bilər,
Göz-gözə yalan deməz.
Daldalarda qeybət etmək,
Kişilərə yaraşmaz.
Sorğu-sual eyləyəndə,
Üz-üzə yalan deməz.

Yalan demək gözdən salar,
İnsanı kim olsa da.
Köməyin çatan olmaz,
Düşüb darda qalsa da.
Kim inanar beləsinə,
Saralsa da, solsa da.
Həqiqətə kölgə salıb,
Hər sözə yalan deməz.

Yalan sözə tamahlanıb,
Əyriyə girişməyib.
Fitnə-fəsad törədənlə
Əl verib görüşməyib.
Şəhriyaz öz əqidəsin
Heç nəyə dəyişməyib.
Hədə-qorxu gəlsələr də,
Can verər yalan deməz.

QOŞA QAFİYƏLİ DİVANİLƏR



SƏN VERMİSƏN

Tanrım qəti öyrətmisən, bu canı sən vermisən,
Məhəbbəti öyrətmisən, dövranı sən vermisən.
Məxluqatlar səcdə edir sən Xudanın adına,
Sədaqəti öyrətmisən, imanı sən vermisən.

Kişi olan daldalarda gedib niyə deyinsin?
Bir bədbəxtin taleyinə baxa-baxa sevinsin.
Yaratdığın nə karədir lovğalanıb öyünsün,
Qiyaməti öyrətmisən, divanı sən vermisən.

Mərdi möhtac eylədilər namərd əlinə baxsın,
Mərdiməzar öyrənibdir neçə evləri yıxsın.
Şəhriyazın həddi nədir yoldan kənara çıxsın,
Ziyarəti öyrətmisən, fərmanı sən vermisən.

UCUZ TUTA

Qafil olan qafil gəzər, hörməti ucuz tutar
Səbri olan səbrə dözər, şöhrəti ucuz tutar.
İbadətə boyun əyən səcdə edər Allaha,
Bu dünyadan əlin üzrər, sərvəti ucuz tutar.

Ürək coşdu, belə gəldi bu kəlmənin gerisi,
Biri ilnən can bəsləyir, yanır oda birisi.
Abır-həya anlamayan olar şəhvət hərisi,
Kimi görsə gözün süzər, isməti ucuz tutar.

Qartal göydəquş ovlayar, qarğalar gəzər leşi,
Tərsə dönüb tərs dolanır qoca dünyanın işi.
Şəhriyazı bəyənməyir varlığı naqis kişi,
Qadın kimi özün bəzər, hikməti ucuz tutar.

YAZAN YAZIB

Mənəm deyib lovğalanma, qisməti yazan yazıb,
Var başına çox dolanma, sərvəti yazan yazıb.
Firon kimi durub düşmə sən Allahlıq eşqinə,
Qürrələnib havalanma, şöhrəti yazan yazıb.

Dünyamızda nələr olur gözümüz görə-görə,
İnsan insanı bəyənmir, düşmən olub bir-birə.
Lövhü-məhfus kitabının hikməti endi yerə,
Aqil sözdən aralanma, ülfəti yazan yazıb.

Şəhriyaz, dünən ağlayan bu günlər gülən olub,
Bir vaxt səni bəyənməyən qapına gələn olub.
Əlli ildə cahil gəzən indi baş bilən olub,
Acı dilnən yaralanma, qiyməti yazan yazıb.


ZAY ETMİŞİK

Çöllərimiz yaman gündə, düzləri zay etmişik,
Tellərimiz yaman gündə, üzləri zay etmişik.
Nəfisimiz iti qılınc vursan daşı parçalar,
Əllərimiz yaman gündə, gözləri zay etmişik.

Bizi görən dəhşətindən yazıq gəlir heyrətə,
Şöhrət bizdən zara gəlib, biz qaçırıq şöhrətə.
Çürük malı tərifləyib sırıyırıq millətə,
İllərimiz yaman gündə, izləri zay etmişik.

Bahar ömrün çoxdan keçib qarşıdadır qarlı qış,
Dəlisovluq vaxtın deyil, qayıt özünə yığış.
Binəva Şəhriyaz, çalış danışanda düz danış,
Dillərimiz yaman gündə, sözləri zay etmişik.

ƏVVƏLAXIR
DİVANİLƏR



ZOR OLAR

“R” əvvəlaxır

Rahat yaşa, əyri danış, düz deməyin zor olar,
Rəbbin sənə səbir verib gözləməyin zor olar.
Rəhim eylə əl açana etməsən səndən küsər.
Rəqib səninlə dolanmaz bizdəməyin zor olar.

Rəsmi görüş məxfiliyi çəkib üzə çıxardar,
Razı olma sən namərdə yaşı gözə çıxardar.
Rəva görmə naşı nadan dərdi yüzə çıxardar,
Rüxsarı çirkin olanı üzdəməyin zor olar.

Ram eyləyən Şəhryazı dünyadan zəlil gedər,
Rüzgar əsər, yer tərpədər, olar tufandan betər.
Ruzimizi verən odur, kim ona şübhə edər,
Rəhmanını duymayana söz deməyin zor olar.



ZOR OLDU

“U” əvvəlaxır

Ulu Tanrım yol göstərdi, anlamağım zor oldu,
Uyğun olmayan namərdlə dolanmağım zor oldu.
Uzun müddət aparmışdı məni qəflət yuxusu,
Ustadlarım danladılar oyanmağım zor oldu.

Umu-küsü mən yazığı yavaş-yavaş doyurdu,
Uçuruma gətirənlər gic yerinə qoyurdu.
Unutmadım doğru yolu Yaradanım buyurdu,
Ucsuz-bucaqsız dünyada dolanmağım zor oldu.

Uyma namərdə Şəhriyaz, qoy olsun qəlbin dolu,
Urvatsızın əqidəsi olar sərvətin qulu.
Umudumu kəsməmişdim dedim tutar düz yolu,
Utanmazı pünhan yerdə danlamağım zor oldu.



UYĞUN GƏLƏ

“Ə” əvvəlaxır


Ərənlərim bağ becərə, gül-gülə uyğun gələ,
Əl verəm ustad əlinə, əl-ələ uyğun gələ.
Əhli-kamil kəlməsindən damla düşə könlünə,
Ərşi-kürsü dolanasan ay ilə uyğun gələ.

Əzəl gündən can qalmışdı dərdlərimlə iç-içə,
Əmir haqdan gəlib mənə qoşulmuşam o köçə.
Əyri yoldan uzaq ola bazarın düzgün seçə,
Əsil sərraf gövhər sata dür, lələ uyğun gələ.

Əlac etsən Şəhriyaza, qoyma zalım öldürə,
Ərzi-halın gedib bir-bir özgəsinə bildirə.
Əlif-qəddin şax dayana sözün könül güldürə,
Ədəb-ərkan düz qurula söz dilə uyğun gələ.



MÜXƏMMƏSLƏR



SAZIN

Aşıq Faxfur Ağbabalıya

Aşıq çıxart köynəyindən,
Bir çıxsın meydana sazın.
Mizrab tel üstə oynasın,
Səs salsın hər yana sazın.
Pərdələri dilləndikcə,
Ləzzət versin cana sazın.
Məclis əhli şövqə gəlsin,
Qoy gəlsin cövlana sazın.
Sifarişini versinlər,
Başlasın dastana sazın.

Haqdan bizə yadigardır,
Ustadların əmanəti.
Adı pakdır, özü pakdır,
Götürməz o xəyanəti.
Ara vurub, ara qatmır,
Yoxdur onun qəbahəti.
Kərəm dalınca ağlayıb,
Yaman çəkibdir həsrəti,
Pis gözlərdən uzaq olsun,
Yaraşsın dövrana sazın.

Gözəlləri tərifləyib,
Mələklərə tay elədi.
Aşiqləri qovuşdurub,
Neçə gözəl toy elədi.
Ona pis gözlə baxanı,
Dilində rüsvay elədi.
Şəhriyaz qələm götürüb,
Adına bir pay elədi.
Sinən üstə havalansın,
Dönsün bir tərlana sazın.

GƏLİNƏ

Yaradan gözəl yaradıb,
Veribdir ismət gəlinə.
Görən kimi könlüm coşdu,
Bəslədim hörmət gəlinə.
Qaynanası blam desin,
Gəlməsin söhbət gəlinə.
Can sirdaşından çox olsun,
Mehri-məhəbbə gəlinə.
Üzün görüb eyləyəsən,
Səcdə ibadət gəlinə.

Çalınanda bəy havası,
Nazlanıb durdu ayağa.
Qızlar alıb dövrəsinə,
Gətirdilər oynamağa.
Bəzəkli tellərin gördüm,
Alnından çıxıb qabağa.
Məclis əhli yol verdilər,
Çəkildilər bir qırağa.
Bu günki toyu gətirsin,
Şərəflə-şöhrət gəlinə.

Təmizlikdə, səliqədə,
Anasına çəkib özü.
Sanki bir cüt ulduz yanır,
Boylanıb baxanda gözü.
Qaşları kaman kimidir,
Bəzənibdir zərlə üzü.
Şəhriyazam, söyləmişəm,
İsbat eyləyərəm sözü.
Gözəgörünməz bəxş etsin,
Bir gözəl züryət gəlinə.

AŞBAZA

Ay ariflər, siz bir baxın,
Gördüyüm maral aşbaza.
Yaman gözlərdən qorunsun,
Gəlməsin zaval aşbaza.
Yaradanım bol veribdir,
Ağıl-huş, kamal aşbaza.
Danışanda heyran qaldım,
Sözü şəkər, bal şabaza.
Tərifini şair yazıb,
Verməyin sual aşbaza.

Anasını dindirəndə,
Canım ana can deyirdi.
Dodaqları tərpənmirdi,
Elə bil qaymaq yeyirdi.
Nəsə bir şey istəyəndə,
Canı-dildən baş əyirdi.
Hərdən gəlib əyləşirdi,
Hərdən mətbəxə dəyirdi.
Qismətini Tanrı versin,
Yetsin əhli-hal aşbaza.

Həyəti çox bənzəyirdi,
Cənnətin bir guşəsinə.
Gördüm ki, nələr düzülüb,
Evindəki süfrəsinə.
İki göz istəyir baxsın,
Pendirlə yağ kəsməsinə.
Elə bil mələk dolanır,
Gəzəndə yan-yörəsinə.
Şəhriyazın təbi coşdu,
Söz dedi qumral aşbaza.

QOCALIQ

Başımızın qaxıncısan,
Omuşuq yaman qocalıq.
Hər yana əli atırıq,
Gəlməyir güman qocalıq.
Yerişimiz qaz yerişi,
Gözümüz tərlan qocalıq.
Gedib kimə gileylənək,
Verməyir aman qocalıq.
Deyirlər ki, yol üstəyik,
Çatıbdır zaman qocalıq.

Ayaq əsir, baş titrəyir,
Biz olmuşuq qarı kimi.
Əllərimiz buza dönüb,
Quzeylərin qarı kimi.
Al rəngimiz saralıbdır,
Payızın son barı kimi.
Günü-gündən dənlənirik,
Quşlar yeyən darı kimi.
Daha biznən yola getmir,
İndiki zaman qocalıq.

Dolandın gəzdin hər yanı,
Yenə də gözün doymadı.
Qırğı kimi şax baxışın,
Nə bəyi, xanı saymadı.
Arxanca asıb-kəsdilər,
Qəlbin onları duymadı.
Şəhriyaz üzün çevirib,
Səni yolda tək qoymadı.
Dağlar gəzən vaxtın keçib,
Olmusan can-can qocalıq.

ZAMANA

Hamı səndən gileylənir,
Nədir bu halın zamana.
Baxıram yaman gündədir,
Qaymağın, balın zamana.
Qalxıb ceyranın belinə,
Satılan malın zamana.
Görən nə vaxt kəsiləcək,
Bu qalmaqalın zamana.
Xırda-xuruş alver edir,
Rüstəmi-Zalın zamana.

Səksəni keçmiş kişilər,
Ekranlarda qarı gəzir.
Tükənib səxavət əli,
Gəzən indi varı gəzir.
Biri başına tac qoyub,
Əlində mirvari gəzir.
Qızlar bəyənmir oğlanı,
Hallı-pullu yarı gəzir.
Qarışıbdır bir-birinə,
Yaşılın-alın zamana.

Beləsinə nə deyəsən,
Gövhəri-ləli bəyənmir.
Xisləti heyvan xisləti,
Gözəlcə dili bəyənmir.
Mayasında qarışıq var,
Mahalı-eli bəyənmir.
Şəhriyazdan narazıdır,
Gözəlcə "gülü" bəyənmir.
Təbib gəlib əlac etsin,
Yoxdur kamalın zamana.

DANIŞIR

Zaman niyə xarablaşıb,
Danışan yaman danışır.
Qoca susur, cavan dinir,
Dinəndə qan-qan danışır.
Abır-həya əldən gedib,
Qız kimi oğlan danışır.
Gündüzümüz dedi-qodu,
Axşamlar ekran danışır.
Həyasızlar baş aparır,
Həyalı pünhan danışır.

Ziyarətə gedib-gələn,
Gəzir bir təhər dolanır.
Üzündə mömin pərdəsi,
Dilində zəhər dolanır.
Axşam namazın unudur,
Orucsuz səhər dolanır.
Qarğış şələsi belində,
Şütüyür şəhər dolanır.
Kimi görsə minnət qoyur,
Onundur dövran danışır.

Heyif sizdən ay kişilər,
Dünya görün kimə qalıb.
Zaman keçir, dövran ötür,
Paşa, Sultan yola salıb.
At oynadan güləş tutan,
Toyda nəmər xələt alıb.
Şəhriyazı qəm götürüb,
Huş gedib, xəyala dalıb.
Eşidən diqqət yetirsin,
Deməsin böhtan danışır.

OYNADIR

Fikir verin bu gözələ,
Yeriyir göz-qaş oynadır.
Baxışı mələk baxışı,
Telini yavaş oynadır.
Gəlibdir dostun toyuna,
Yanında sirdaş oynadır.
Hava düşüb sümüyünə,
Əl tərpədir, baş oynadır.
Bilərziyi altundandır,
Barmaqda qaş-daş oynadır.

Sinəsi behişt xəzinəsi,
Gözü ceyrana bənzəyir.
Dodağı qaymaq təhərdi,
Pətəkdə şana bənzəyir.
Xəstə görsə havalanar,
Afəti-cana bənzəyir.
Yaradan gözəl yaradıb,
Huri-qılmana bənzəyir.
Geyim bədənə yaraşır,
Bədəni qumaş oynadır.

Şəhriyazı ovsunladı,
Xəyalı dağ-daş dolandı.
Tüstüsü çıxdı başından,
Canından oda qalandı.
Bəylər durub tamaşaya,
Görün necə can alandı.
Bir kəlmə əksik söyləsəm,
Deyəcəklər bu yalandı.
Sevincindən gülür hərdən,
Hərdən gözü yaş oynadır.

GƏTİRİR

Yaxşı söhbət könül açır,
İnsana ovqat gətirir.
Dəli başa cin girəndə,
Tufan, qiyamat gətirir.
Alverçi gedib İrandan,
Min cür xırdavat gətirir.
Qarnı piyli harınlamış,
Peysəri qat-qat gətirir.
Bir az dərin düşüncənin,
Ürəyi çat-çat gətirir.

Küçələrə çıxmaq olmur,
Hər kəs bir cür yeriş gedir.
"Şirin" söhbət ucuzlaşıb.
Dildə yenə söyüş gedir.
Çayxanada, qəhfələrdə,
Axşam üstü görüş gedir.
Fırıldaqçı nə çoxuymuş,
Alana min gediş gedir.
Guya uşaq sevindirir,
Qorxulu partpart gətirir.

Bunun dərdin hara yazım,
Hayı gedib, vayı qalıb.
Bu gözəl aləm içində,
Ona bənzər tayı qalıb.
Utanır süfrədən yazıq,
Qabağında çayı qalıb.
Şəhriyazın can evində,
Hələ haqqı sayı qalıb.
Əlində tutub dəftəri,
Mənə hesabat gətirir.

AXTARIR

Ədəbsiz düşüb ortaya,
Ədəbli insan axtarır.
Mərifətdən xəbəri yox,
Adamda nöqsan axtarır.
Milçəyi döndərir filə,
Dinir nahaqq qan axtarır.
Küt başını işə salmır,
İşini asan axtarır.
Dost-tanışı dalamağa,
Bir fürsət zaman axtarır.

Başı yekə mal görəndə,
İki qat olub əyilir.
Görünüşü bir kişidir,
Üzünə əhsən deyilir.
İpi arvadın əlində,
Dinir qapazla döyülür.
Qohumları üz döndərin,
Evlənən gündən söyülür.
Abrı olsa deyərdim ki,
Getməyə bir yan axtarır.

Qonaq gəlib müştərisi,
Xanımı alışıb yanır.
Elə bil ki, Cənnətdədir,
Xabi-qəflətdən oyanır.
Kişinin gözün aldadıb,
Bədəni oynaq dayanır.
Çox şeyi pünhan saxlayır,
Şəhriyaz azca utanır.
Məst olub düşür yatağa,
Yuxuda bir can axtarır.

QIRXBULAQ

Bilirəm sən darıxıbsan,
Halın yamandır Qırxbulaq.
Üstündə elin görünmür,
Başın dumandır Qırxbulaq.
Üzünü bir də görəydim,
O da gümandır Qırxbulaq.
Qoynuna gələn qonağın,
Payın umandır Qırxbulaq.
Əl açıb gəlsəm qapına,
Qovma amandır Qırxbulaq.

Düzlərində ağ sürülər,
Niyə gəlib heç yaylamır?
Nazlı-nazlı gözəllərin,
Əlində şərbət paylamır.
Çobanların çadırlarda,
Oturub niyə çaylamır?
Günorta vaxtı keçəndə,
Sürünü düzə haylamır.
Qoynunda əmlik kəsilmir,
Xeyli zamandır Qırxbulaq.

Hələ yaxşı dərk etmirdim,
Onda sənin qiymətini.
Haqqı-sayın yadımdadır,
Unutmaram hörmətini.
Ölüncə əziz saxlaram,
Kişilərin zəhmətini.
Şəhriyazın neçə ildir,
Çox çəkibdir həsrətini.
Coşub dərya tək çağlayır,
Sinə ümmandır Qırxbulaq.

TƏZƏKLİ

Elə bil behişt kimiydi,
Qoynun-qucağın Təzəkli.
Göydə Ay tək alışardı,
Gecə çırağın Təzəkli.
Ayölənlə, Pənəyurdu,
Olub ortağın Təzəkli.
Dadı damağımdan getmir,
Balın-qaymağın Təzəkli.
Yazda-yayda başlanardı,
Məclis-yığımağın Təzəkli.

Abi-kövsər bulağından,
İçənlər cana gələrdi.
Düzlərini görən kimsə,
Baxıb qiymətin verərdi.
Gözəllikdən vəcdə gələn,
Özün Cənnətdə bilərdi.
Elə ki payız başlandı,
Elin aşağı enərdi.
Arana sovqat olardı,
O kərə yağın Təzəkli.

Şəhriyazam, vaxt ötürüb,
Ömrü vermişəm hədərə.
Bacarsaydım tərifini,
Çoxdan yazardım dəftərə.
Yanında mən günahkaram,
Özün ərz eylə hər yerə.
Ölsəm səndən ayrılmazdım,
Ayırdılar birdən-birə.
Görən haçan açılacaq,
Qaşın-qabağın Təzəkli.

KİTABIN İÇİNDƏKİLƏR

USTADNAMƏLƏR

Ucuzlaşdırar 4
Hərdən 4
Gəzləməz 5
Saxlamadın 6
Gülməsin 7
Eli çürüdər 7
Ayıbdı 8
Yaxşıdır 9
Hörmətini 9
Düşməz 10
Ucuzlaşar 11
Qarışdırar 11
Utandırar 12

TƏSNİFLƏR

Şükür 14
Yaxşı sənətkar 14
Azərbaycandı 15
Allah eşqinə 16
Gözəldi gözəl 17
Səni görəndə 18

GƏRAYLILAR

Qaldım Allah baxa-baxa 20
Deməsinlər 20
Kiridirəm 21
Satırsan 22
Boşanırsan 22
Alasıymış 23

Atammırıq 24
Siqaretlə öpüşürük.....25
Piylənmisən 25
Ar bilirik.....26
Əzrirə-əzdirə.....27
Üzünə 27
Dədələşər.....28
Səni duyan görə bilər 29
Demişəm.....30
Söz oxu.....30
O dağların ətəyində 31
Ustadların kölgəsində.....32
Günah mənim özümdədi 32
Gözəl görünür.....33
İçində.....33
Danışar 34
Gələsən.....35
Oynadır.....35
Yaman gözəllənib.....36

QOŞMALAR

Belə yazasan.....38
Ay olmaz-olmaz 39
El başına dolandır.....40
Dağlarda qaldı 40
Dolandırmadım 41
Dönə-dönə 42
Dəysin.....42
Utansın 43
Yazdım 44
Qarışdı 45
Tanışdı.....45

Mənə.....47
Başına dolandım.....46
Ya qismət.....48
Yoldadı.....49
Deyil.....49
Apardılar.....50
Gələr.....51
Çəkərmiş.....51
Məni qorxudan.....52
Ətrafında.....53
Utandım.....54
Hayıf olmasın.....54
Bəsləyirsən.....55
Çıxardılar.....56
Olsun.....56
Bəyənər.....57
Yazmamısan.....58
Hayıf eylədi.....59
Ələ saldılar.....59
Belə olsun.....60
Üstündəsən.....61
Sıralanmadı.....61
Gəl qoşa gedək.....62
Kölgəsində.....63
Döndərər.....63
Keçməsin.....64
Görən olmadı.....65
Arxasınca.....65
Dönər.....66
Bir yana.....67
Qələmim.....68
El həmən eldi.....69

Olmasın 70
Düşməsin 71
Eylər 71
Məni 72
Bir səhər çağı 73
Nəvələr 73
Nəvəsi 74
Aytacım 75
Kənan 75
Öncə 76
Əvvəl 77
Odur o 77
Əvəzi yoxdur 78
Sarı 79
Elə 79
Xocalı 80
Ölsün 81
Sual-sorğudan 81
Qaydasında 82
Olmuşam 83
Eyləmisən 83
Yoxuymuş 84
Mən yazan oldum 85
Qəzetisən 86
Gəlir 87
Yorulmaz 87
Gözə görünən 88
Vaxtında 89
Üstündə mən 89
Ötəri 90
Hayıfım gəlir 91
Gətirmişəm 91

Töhfəsidir 92
Dağları 93
Qoymaya 93
Dərələyəzdə 94

QOŞA QAFİYƏLİ QOŞMALAR

Belə qalmaz 96
Sənsən 96
Onunla 97
Kəm baxır 98
Yaza-yaza 98
Əvəzimə 99
Hayıf oldu 100
Ayrı şeydi 100
Küsər. 101
Aydının 102

CIĞALI QOŞMALAR

Gələr-gələr 104
Ha bunu yazdı 105
Üstə bir-bir 106
Bir üzdən 107
İndi 108
İncə-incə 109

TƏƏSSÜFNAMƏLƏR

Əlimnən 111
Beşbarmağın pirinə 112
Kimi 112
Qarışdırmışıq 113
Səni 114
Seçdilər 114

Satdılar 115
Eylədilər 116
Gəlməzsən 116
Yeri 117
Söz dəryasında 118
Hayıf 119
Sən də 120

USTAD OLAN EL BAŞINA DOLANAR

Öləsgər kimi 122
Sənətkar 123
A Pirsultanlı 124
Üçün 125
Qalıb 126
Ay şair Kərəm 127
Kürqıraxlı tək 128
Mən Kərəm kimi 129
Saxlayar 130
O vaxtdan 131
Sən məni 132
Şikəst eylədi 133
Gətirsin 134
Təbinlə 135
Sənin yazdığın 136
Yadına düşürmü? 137
Başlıyammıram 138
Şiruyə 139
Çəkəmmədim mən yaxamı uzağa 140
Allah eşqinə 141
Qağa 142
Getdi 143
Əlli il 144

Pir kimi.....145
Onda 145
Aydın.....146
İl belə.....147
Özündə gözəl.....148
Qoşa tutdular 149
Sarı 150
Səni.....151
Könlüm oyansın 152
Gəlsin 153
Eyləyibdi 154
Tanıya bilmədim 155
Sizinki necə? 156
Əlli beşdə.....157
Dolandım.....158

TƏCNİSLƏR

Dürüst dər məni.....160
Gözəl dən düşər.....160
O yağı 161
Qal ana dağlar 162
Ay belə-belə 162
Ya qazı.....163
Gözəldən.....164
Ataya 164
Bu taya düşdü.....165
A sana.....166
Şahsənəmindi 167
A yarım.....168
Elə sinədən 168
Ay ata malı 169
Ay ağı məndə 170

CIĞALI TƏCNİSLƏR

A yala-yala 172
Ay düzə-düzə 173
Ay alım indi.....174

DİVANİLƏR

Mən.....176
Baş əydim.....177
Səbrim yetər 178
İnsanı gözdən salar.....179
Lazım olar 180
Nəzərdən düşər.....181
Keçər 182
Çıxar.....183
Biz kimik.....184
Birdi bir 185

ZƏNCİRLƏMƏ DİVANİLƏR

Allah eşqinə.....187
Haqdan gələr 188
Layiq deyil.....189
Nəzərdə tutmuşam.....190
Yalan deməz.....191

QOŞA QAFİYƏLİ DİVANİLƏR

Sən vermisən 193
Ucuz tuta 194
Yazan yazıb 195
Zay etmişik.....196

ƏVVƏLAXIR DİVANİLƏR

Zor olar 198
Zor oldu 199
Uyğun gələ 200

MÜXƏMMƏSLƏR

Sazın 202
Gəlinə 203
Aşbaza 204
Qocalıq 205
Zamana 206
Danışır 207
Oynadır 208
Gətirir 209
Axtarır 210
Qırxbulaq 211
Təzəkli 212

Zakir Şəhriyaz
Söz gəlsə tutardım lələ dağları

Bakı, "SkyG", 2016. – 224 səh.

Texniki redaktor:
Aqşin Hacızadə

Kompüter və dizayn:
Araz Yaquboğlu

Operator:
Cəlal Arifoğlu

Yığılmağa verilmişdir: 05.01.2016
Çapa imzalanmışdır: 25.02.2016
Şərti çap vərəqi: 14 ç.v., Sifariş №11
Kağız formatı: 60x84, 1/16. Tiraj: 125

Kitab "SkyG"-də çap olunmuşdur.
Ünvan: Bakı, Ü.Hacıbəyov, 21
e-mail: skyg@yahoo.com